# Xalq qəzeti

Xalqın qəzeti!

№ 164 (30280) 5 avqust 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Biz sülh sazişi ilə nəticələnəcək təşəbbüs irəli sürən hər hansı tərəfi dəstəkləyəcəyik. Əgər biz Ermənistan tərəfindən konstruktiv yanaşma görsək və ən vacibi isə əgər onlar ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysalar, onda biz tezliklə, bəlkə də, ilin sonunadək sülh variantını tapa bilərik.**

# Bütövlük, prinsipiallıq və qətiyyət

## Bu keyfiyyətlər İlham Əliyevə xalqın etimadını qazandırdı



**“Mən İlham Əliyevə özüm qədər inanıram”. Bu fikri xalqımızın ümummilli lideri Heydər Əliyev 2003-cü il oktyabrın 1-də xalqa müraciətində özünəxas müdrikliklə ifadə etmişdi. Dahi şəxsiyyətin inamı Azərbaycanın gələcək yoluna parlaq işıq saldı. Bu inamın səsləndiyi vaxtdan bir neçə ay əvvəl – 2003-cü il avqustun 4-də cənab İlham Əliyevin Baş nazir təyinatı ulu öndərin dövlət quruculuğu kursuna yeni nəfəs verdi. Elə bir nəfəs ki, onun böyüklüyü Azərbaycan adlı orqanizmin strateji qələbələrlə zəngin hədəflərə daşınmasında, sanki məşəl yandırdı.**

İlham Əliyev fenomeni siyasət meydanında uca zirvələri fəth etmiş Heydər Əliyev liderliyinin davamı, məğlubedilməzlik, əbədi qalibiyyət təntənəsi idi. Siyasətdə varislik nümunəsi məhz bu cür olmalı idi və oldu da. Ümummilli lider bir çox nümunələrə, ilklərə imza atdığı kimi, belə bir dərin varislik mirasını müəyyənləşdirməklə də, özünün nəhəngliyini yenidən sübuta yetirmiş oldu.

Bəli, Prezident Heydər Əliyevin İlham Əliyevin Baş nazir təyin olunması ilə bağlı Milli Məclisə müraciətini deputatların böyük razılıqla qarşılamaları müasir dövr tariximizdə müstəsna hadisədir. Ona görə ki, bu razılıq Azərbaycan xalqının iradəsindən nəşət almışdı.

Cənab İlham Əliyev xalqımızın dərin rəğbətini özünün yorulmaz fəaliyyəti ilə qazanmışdı. Bu baxımdan onun Avropa Şurasında Azərbaycanın nümayəndə heyətinin rəhbəri, Avropa Şurasının Parlament Assambleyasının sədr müavini, büro üzvü, Azərbaycan Dövlət Neft Şirkətinin Birinci vitse-prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti kimi mühüm postlarda ölkəmiz naminə gördüyü səmərəli işlərin vurğulanması mütləqdir.

Ümumən, İlham Əliyev şəxsiyyətinin nəinki vətəndaşlarımız, habelə, bütün dünya azərbaycanlıları qarşısındakı nüfuzunu şərtləndirən bir neçə məqamı xüsusi vurğulamağa ehtiyac var.

***

Birincisi, Azərbaycan xalqı Heydər Əliyev siyasi kursuna inanırdı və arzulayırdı ki, bu kurs davamlı olsun. İnamdan söz düşmüşkən, yazımızın ilk cümləsində iqtibasın özü hər şeyi deyir. Heydər Əliyevin dahiyanə səslənmiş bu fikri insanlarımızda İlham Əliyevə olan rəğbətin inama çevrilmək təşnəsinə, sanki qığılcım vermişdi.

*(ardı 3-cü səhifədə)*

# Separatizmin mənşəyi eyni olsa da, yanaşma fərqlidir

**Azərbaycan XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdikdən sonra bir çox problemlərlə üzləşdi. Şübhəsiz ki, onlardan ən böyüyü bədnam qonşumuz Ermənistan tərəfindən Qarabağda erməni separatizminin körüklənməsi, bunun ardınca 1992-ci əvvəlindən etibarən başlanan açıq hərbi əməliyyatlar oldu. Yeni müstəqillik qazanmış ölkə Birinci Qarabağ müharibəsi zamanı məğlubiyyətlə üzləşməklə, ərazi itkilərinə məruz qalmaqla yanaşı, xarici dairələrin əsassız hücumlarının da hədəfinə çevrildi.**



Erməni diaspor və lobbisinin güclü olduğu ABŞ, Fransa, Rusiya, eləcə də Avropanın bir sıra dövlətlərindən edilən hücumlar ölkəmizin vəziyyətinin pisləşməsinə gətirib çıxardı. Məsələn, ABŞ Konqresinin Nümayəndələr Palatasının 1992-ci ildə qəbul etdiyi Azadlığa Dəstək Aktına 907-ci düzəliş ABŞ Prezidentinə Azərbaycana birbaşa yardımlar göstərməyi qadağan edirdi. Bu, dünya tarixində təcavüzlə üzləşənin cəzalandırılmasına dair nadir hallardan biri idi. Əfsuslar olsun ki, Azərbaycanın əsassız hücumlara məruz qalması, eyni məsələdə fərqli yanaşma ilə üzləşməsi sistemli oldu. Ötən onilliklərdə biz bunun çox sayda nümunələrini gördük.

*(ardı 5-ci səhifədə)*

# Asiya İnfrastruktur İnvestisiya Bankı Azərbaycanda

**Azərbaycana investisiya qoyuluşuna maraq göstərilməsi, meqalayihələrin maliyyələşdirilməsi ölkəmizin həm də siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə bağlı olub. Bununla yanaşı, hökumət tərəfindən həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində respublikada güclü iqtisadi potensial formalaşıb.**




Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionun əlverişli mövqeyə malik mühüm tranzit mərkəzi olması və insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırıb. Eyni zamanda, Azərbaycan daim beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirib. Ölkəmizin təşəbbüskarı olduğu transmilli layihələr Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayıb.

*(ardı 7-ci səhifədə)*

# “Taxıl sazişi”ni uzatmaq mümkün olacaqmı?



Səhifə ⇨ 11

# Niger Fransa ilə hərbi müqaviləni ləğv edib

Səhifə ⇨ 11



# Zəngəzur dəhlizi ilə bağlı İranın mövqeyi dəyişibmi?

**Azərbaycan üçün Zəngəzur dəhlizinin açılması son dərəcə vacibdir. Bunun əhəmiyyətini əlavə izaha ehtiyacı yoxdur. Çünki məsələ ilə bağlı dəfələrlə ən müxtəlif səviyyələrdə fikirlər bildirilib, arqumentlər səsləndirilib. Qeyd etməliyik ki, “Zəngəzur dəhlizi” nəinki ölkəmiz, bütövlükdə, region və hətta, dünya üçün müstəsna önəm daşımaqdadır. Görünür, elə bu səbəbdəndir ki, xarici jurnalistlər və ekspertlər məsələyə dair ölkəmizin rəsmilərinə, xüsusən Azərbaycan Prezidenti İlham Əliyevə çoxsaylı suallar ünvanlayırlar.**

Zəngəzur dəhlizinin tezliklə açılmasına böyük maraq göstərən regional aktorlardan biri də Türkiyədir. Qardaş ölkə bu günlərdə marağını bir daha bəyan etməsi ilə diqqət mərkəzinə gəlib. Söhbət Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla görüşdəki fikirlərindən gedir. Bu barədə söz açacağıq. Ancaq əvvəlcə mövzu ilə bağlı digər mətləbləri vurğulayaq.

Nəzərə alaq ki, Azərbaycanın digər ərazilərini qardaş Türkiyə ilə bilavasitə sərhədə malik Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizinin açılmasına dair, belə demək mümkünsə, ilk müasir hüquqi əsas 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdır. O bəyanat ki, orada Azərbaycan və Rusiya liderlərinin, həmçinin Ermənistan baş nazirinin imzası var. Əlbəttə, sonuncu öz imzasına hörmətlə yanaşmasa da, bu məqamın üzərində xüsusi dayanmağa ehtiyac yoxdur. Çünki prinsip etibarilə, İrəvanın hansı mövqeni ortaya qoyması az əhəmiyyətlidir. Yeni Ermənistan istəsə də, istəməsə də, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirəcək yol, müasir qlobal siyasi terminologiya ilə desək, Zəngəzur dəhlizi açılacaqdır.

*(ardı 4-cü səhifədə)*

# Yaşar Əliyev: İrəvanın Bakıya etnik zəmində ayrı-seçkilik ittihamı gülüncdür

**1990-cı illərin əvvəllərindən başlayaraq ölkəmizə qarşı otuz ilə yaxın təcavüzü zamanı Ermənistan çoxsaylı hərbi cinayətlər törədib. Bunun nəticəsində on minlərlə dinc sakin həlak olub. Ermənilər Qarabağda kütləvi etnik təmizləmə aparıb, yaşayış məntəqələrimizi dağıdıb, mədəni irsi məhv ediblər. İnsanlığa bir araya sığmayan bu vandalizmin miqyasını hərbi əməliyyatlar zamanı itkin düşmüş 4 minə yaxın Azərbaycan vətəndaşı, o cümlədən İrəvanın taleyinə aydınlıq gətirməkdən çəkindiyi 719 mülki şəxs də sübut edir.**




Bütün bunlar heç baş verməyibmiş kimi, indi durub Bakının qəsdən “humanitar böhran” yaratdığı, “Laçın yolunu blokladığı”, Qarabağ iqtisadi rayonunumuzda yaşayan erməni sakinlərə qarşı “etnik təmizləmə” aparmağa hazırlaşdığı barədə dezinformasiya yaymaq, bu növ yalanları beynəlxalq qurumlara car çəkmək daşnak hayların çoxdan vərdiş elədiyi siyasi şantajdan başqa bir şey deyil.

*(ardı 4-cü səhifədə)*

# Unudulmaz qardaşlıq görüşləri



Səhifə ⇨ 10

# Zəmilər şumlanıb dincə qoyulur



Səhifə ⇨ 8

# “Əsrin müqaviləsi”ndən güc alan tarixi tərəqqi

Səhifə ⇨ 7

## “İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı hədləri, habelə 2023-cü ilin sonuna hədəflənən icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1950 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı hədləri, habelə 2023-cü ilin sonuna hədəflənən icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1950 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1460) 2-ci hissəsində “20,0” rəqəmləri “30,0” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790; 2023, № 1, maddə 105, № 3, maddə 391; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 3974 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.1-ci bəndin səkkizinci abzasının beşinci cümləsində “20%, o cümlədən xarici dövlət borcunun ÜDM-də payının isə 10% ətrafında saxlanılması” sözləri “30 faizi, o cümlədən xarici dövlət borcunun 10,0 milyard ABŞ dollarını üstələməməsi” sözləri ilə əvəz edilsin.

**2.** “4. 2022–2026-cı illərdə əsas hədəf indikatorlar” hissəsindəki cədvəlin “2026” sütununun on beşinci abzasında “20,0” rəqəmləri “30,0” rəqəmləri ilə əvəz edilsin.

**3.** “7. Tədbirlər Planı” hissəsinin 1.2.3-cü yarımbəndinin 5-ci abzasının “Yekun nəticələr” sütununda “20” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 3702 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022–2025-ci illər üzrə yenilənməsi çərçivəsi”ndə dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 3702 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1530) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022–2025-ci illər üzrə yenilənməsi çərçivəsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** “5. 2022–2025-ci illər üzrə yenilənən Strategiya” hissəsi üzrə:

1.1. “Strateji məqsəd 1. Həm ortamüddətli, həm də uzunmüddətli dövrdə ölkə iqtisadiyyatının ehtiyaclarını nəzərə almaqla dövlət borcunun dayanıqlılığını təmin etmək” hissəsinin ikinci abzasının birinci cümləsində “20” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin;

1.2. “Cədvəl 1. Dövlət borcu və dövlət borcuna xidmət xərcləri üzrə müəyyən edilmiş göstəricilər (ilin sonuna)” cədvəlinin “Göstərici” sütununun ikinci abzasında “Xarici borcun (birbaşa xarici dövlət borcu) ÜDM-ə nisbəti” sözləri “Birbaşa xarici dövlət borcunun yuxarı həddi” sözləri ilə, “Hədəf göstərici” sütununun birinci abzasında “20,0%” sözləri “30,0%-i üstələməməsi” sözləri ilə, ikinci abzasında “15,0%” sözləri “10,0 milyard ABŞ dollarını üstələməməsi” sözləri ilə əvəz edilsin;

1.3. “Prioritet tədbir 1. 2022–2025-ci illər üzrə dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 2025-ci ilin sonunadək 20 faizdən aşağı səviyyədə saxlanılması” hissəsinin birinci və ikinci abzaslarında “20 faizdən aşağı səviyyədə saxlanılması” sözləri “30 faizi üstələməməsi” sözləri ilə əvəz edilsin;

1.4. “Prioritet tədbir 2. Xarici dövlət borcunun ÜDM-ə nisbətinin 2025-ci ilin sonunadək 15 faizdən aşağı səviyyədə saxlanılması” hissəsi aşağıdakı redaksiyada verilsin:

“Prioritet tədbir 2. Xarici dövlət borcunun 2025-ci ilin sonunadək 10,0 milyard ABŞ dollarını üstələməməsi

Xarici dövlət borcunun qaytarılması ilə yanaşı, ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi üçün 5,0 milyard ABŞ dollarınadək xarici borc cəlb edilə bilər. Xarici dövlət borcu üzrə yuxarı həddi təşkil edən həmin borcun ÜDM-ə nisbəti göstəricisi, xarici dövlət borcunun nominal ifadədə təsbit olunan yuxarı hədd göstəricisi ilə əvəz olunur.”;

1.5. “Yeni borcalmalar çərçivəsində dövlət borcunun proqnozlaşdırılan vəziyyəti” hissəsi üzrə:

1.5.1. ikinci və dördüncü abzaslarda “hədəflənir” sözü “gözlənilir” sözü ilə əvəz edilsin;

1.5.2. üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

“Xarici dövlət borcunun 2025-ci ilin sonunda 7,1 milyard ABŞ dolları məbləğində və ya ÜDM-in 10,7 faizi həcmində olması gözlənilir (Qrafik 3). Bununla belə, mövcud xarici dövlət borcunun qaytarılması ilə yanaşı, ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi üçün xarici borc cəlb ediləcəyindən, bu göstəricilər dəyişə bilər.”.

**2.** “7. Yenilənən Strategiyanın həyata keçirilməsi ilə bağlı risklər” hissəsinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

“Yenilənən Strategiya ilə müəyyən olunan əsas hədəflər 2025-ci ilin sonunadək dövlət borcunun ÜDM-ə nisbətinin 30 faizdən aşağı səviyyədə saxlanılmasını və xarici dövlət borcunun 10,0 milyard ABŞ dollarını üstələməməsini nəzərdə tutur. Bununla belə, xarici və daxili iqtisadi mühitdə baş verən kəskin dəyişikliklərin ÜDM-in nominal həcminə təsiri nəticəsində borcun ÜDM-ə nisbəti göstəricisi də dəyişə bilər ki, bu da yenilənən strateji məqsədin reallaşmasında çətinliklər yarada bilər.”.

**3.** “9. Tədbirlər Planı” hissəsi üzrə:

3.1. 1.1-ci bəndin “Tədbirin adı” sütununda “20 faizdən aşağı səviyyədə saxlanılması” sözləri “30 faizi üstələməməsi” sözləri ilə əvəz edilsin;

3.2. 1.2-ci bəndin “Tədbirin adı” sütununda “ÜDM-ə nisbətinin 2025-ci ilin sonunadək 15 faizdən aşağı səviyyədə saxlanılması” sözləri “yuxarı həddinin 2025-ci ilin sonunadək 10,0 milyard ABŞ dollarını üstələməməsi” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 avqust 2023-cü il**

## Əli Əsədov Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə başsağlığı verib

**Avqustun 4-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə başsağlığı məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Baş nazir Ə.Əsədov Gürcüstanın qərbində baş vermiş torpaq sürüşməsi nəticəsində insan tələfatı xəbərindən kədərləndiyini bildirib, faciə ilə əlaqədar İ.Qaribaşviliyə dərin hüznlə başsağlığı verib.

Məktubda həmçinin yaralananlara şəfa dilənib, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılması arzulanıb.

***“Xalq qəzeti”***

## Xarici işlər nazirlərinin telefon danışığı

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Gürcüstanın Raça dağlıq bölgəsində Şovi kurortunun yaxınlığında sel və torpaq sürüşməsi nəticəsində baş vermiş fəlakət ilə əlaqədar Gürcüstanın xarici işlər nazirinə zəng vurub.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, C.Bayramov bu ağır fəlakət zamanı həlak olanların ailələrinə və yaxınlarına, dost Gürcüstan hökuməti və xalqına dərin hüznlə başsağlığı verib, yaralananlara şəfa diləyib. Nazir itkin düşmüş şəxslərin tezliklə tapılacağına ümid bəslədiyini bildirib.

O, Azərbaycanın hər zaman Gürcüstanın yanında olduğunu, xilasetmə tədbirləri və təbii fəlakətin fəsadlarının aradan qaldırılması istiqamətində hər bir yardım göstərməyə hazır olduğunu vurğulayıb.

Nazir İlya Darçiaşvili həmrəyliyə və göstərilən dəstəyə görə minnətdarlığını diqqətə çatdırıb.

***“Xalq qəzeti”***

## Baş prokuror vətəndaşlarla görüşüb



**Avqustun 4-də Baş prokuror Kamran Əliyev Quba Rayon Prokurorluğunun inzibati binasında Quba, Qusar, Xaçmaz və digər rayonlardan olan vətəndaşlarla görüşüb.**

Görüşdə iştirak edən 23 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Görüşdən sonra Baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

Həmçinin Baş prokuror “Elektron prokurorluq” informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair əməkdaşların təkliflərini dinləyib, eləcə də müzakirələr aparılmaqla müvafiq göstərişlər verib.

***Qəzənfər QASIMOV,***
***“Xalq qəzeti”***

## Din xadimlərimiz Ümumdünya Kilsələr Şurasını yalana uymamağa çağırıb

**Ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış suveren ərazisi olan Laçın–Xankəndi yolunda son günlərdə Ermənistanın süni şəkildə yaratdığı növbəti təxribatçı tamaşa - "TIR şousu" ətrafında gedən qərəzli fikirlərlə bağlı birgə bəyanat yayıblar.**



Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayevin, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi arximandrit Aleksiy Nikonorovun, Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri Aleksandr Şarovskinin, Alban-udi Xristian Dini İcmasının sədr. Robert Mobilinin imzaladıqları açıqlamada bildirilir:

– Ermənistanın “humanitar yardım” adı ilə TIR yük maşınlarını “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinə yönəltməsi öncədən düşünülmüş və beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək məqsədilə törədilmiş anti-Azərbaycan təxribat kampaniyasının tərkib hissəsidir. TIR-ların qəsdən Azərbaycanın istiqamətində problem yaratması, hadisənin “etnik təmizləmə siyasəti” və “humanitar böhran” kimi qələmə verilməsi erməni tərəfinin müntəzəm olaraq həqiqətləri təhrif etmək xislətinin növbəti təzahürüdür.

Bəyanatda daha sonra qeyd edilir ki, Ermənistanın “etnik təmizləmə” barədə yaydığı məlumatlar yalan və böhtan xarakteri daşıyır:

– Beynəlxalq ictimaiyyət unutmamalıdır ki, 30 ilə yaxın müddət ərzində məhz erməni ekstremistlərin həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz əzəli dədə-baba torpaqlarını tərk etməyə məcbur qalaraq qaçqın və məcburi köçkün həyatı yaşamışlar. Məhz Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı işğal olunmuş ərazilərimizdə məscidlər, məbədlər, qəbiristanlıqlar, tarixi abidələr dağıdılıb talan edilmişdir. Yüzlərlə vətəndaşımız mina partlayışlarında həyatını itirməkdə və əlil olmaqdadır ki, həmin minalar Ermənistan tərəfindən bilavasitə Laçın yolu vasitəsilə Azərbaycan ərazilərinə daşınmışdır.

Bəyanatın sonunda təəssüflə bildirilir ki, Laçın yolu humanitar yüklər üçün açıq olsa da erməni revanşistlər Ümumdünya Kilsələr Şurasından öz məkrli siyasi məqsədləri üçün sui-istifadə edirlər: “Biz, Ümumdünya Kilsələr Şurasını bölgəmizdə sülhə və əmin-amanlığa maneə olan erməni təxribatçı təbliğatına uymamağa və həqiqətlərə söykənən məlumatlara diqqət yetirməyə çağırırıq”.

**“Xalq qəzeti”**



## Daxili işlər naziri vətəndaşlarla görüşüb və sıra baxışı keçirib

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov avqustun 3-4-də Qusar Rayon Polis Şöbəsində vətəndaşlarla görüşüb.**

Rayon Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Şabran, Siyəzən və Xaçmaz rayonlarından qəbula gələn 115 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerində həll edilib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. 23-ü Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 91 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***“Xalq qəzeti”***

## Ekoloji işçi qrupunun iclası

***Şuşada Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə işçi qrupun iclası keçirilib.***



İclasda Şuşa rayonunun biomüxtəlifliyi və onun tədqiqi, Şuşa şəhərində bərk məişət tullantılarının idarə olunması, işğaldan azad edilmiş ərazilərdə tikinti-söküntü tullantılarının idarə olunması və onlardan xammal kimi təkrar istifadə edilməsi, Şuşa şəhərində yaşıllıqların mühafizəsi və zənginləşdirilməsi perspektivləri, Şuşa şəhərinin və Daşaltı qəsəbəsinin su təchizatının təmin edilməsi məqsədilə Zarıslı çayı üzərində planlaşdırılan su anbarının texniki-iqtisadi əsaslandırma layihəsi, Şuşa yolunun tikintisi işlərində tələb olunan xammal təminatı, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən tikinti-quruculuq işləri ilə bağlı daxil olan müraciətlər, işğaldan azad edilmiş ərazilərdə yaranan tikinti-söküntü, Kəlbəcər və Laçın rayonlarında tikintisi planlaşdırılan su-elektrik stansiyaları, Şuşa şəhəri ərazisində icra olunan layihələrin ekoloji qiymətləndirilməsi məsələləri müzakirə edilib.

# Bütövlük, prinsipiallıq və qətiyyət

(əvvəli 1-ci səhifədə)



İkincisi, cənab İlham Əliyevin Baş nazir postuna təyinatı, əslində, xalqın sosial sifarişi idi. Ümummilli lider Heydər Əliyev bu sifarişi yerinə yetirməklə, dövlətçiliyimizin qorunması baxımından müstəsna addım atdı. Bu addım İlham Əliyevin həmin vaxtadək gerçəkləşdirdiyi qlobal fəaliyyəti mahiyyətcə yeni keyfiyyət mərhələsinə yönəltdi.

Üçüncüsü, İlham Əliyevin Baş nazir təyinatı xalqın Heydər Əliyev siyasi kursuna sədaqətinin göstəricisi olmaqla, ölkəmizdəki ictimai-siyasi sabitliyin qorunmasına və davamlılığının təminatına xidmət edirdi. Daha bir vacib məqamı da vurğulayaq: İlham Əliyevin yüksək dövlət postuna təyin olunması Heydər Əliyevin prezidentliyi dövründə formalaşmış dövlətçilik aparatının möhkəmləndirilməsi əzminin məhsulu kimi də diqqət çəkirdi. Nəzərə alaq ki, bu əzm özlüyündə müstəqilliyimizin dönməzliyinin qarantı idi.

Cənab İlham Əliyevin Baş nazir təyinatı onun dövlət başçılığı yolundakı ən mühüm addım kimi də əhəmiyyətlidir. Yəni, ulu öndər Heydər Əliyevin ifadə etdiyi inamın qayəsini məhz prezidentlik yolunda addımlamaq üçün şəraitin yaradılması təşkil etmişdi. Şərait isə yetişmişdi. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də bu şəraiti yetişdirmək qabiliyyəti ilə ölçülür. Onu da nəzərə alaq ki, ulu öndər, eyni zamanda, İlham Əliyevin özünün bir lider kimi formalaşması istiqamətində müstəsna böyüklük göstərmişdi. Liderlik həm də lider yetişdirmək bacarığıdır. Heydər Əliyev özünün siyasi fəaliyyətində buna da müvəffəq olmuşdu.

Bəli, vurğuladığımız kimi, cənab İlham Əliyev Baş nazir postunadək yüksək vəzifə daşımağa layiq olduğunu, sözün əsl mənasında, sübuta yetirmişdi. Bu baxımdan onun Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin rəhbəri qismində həyata keçirdiyi genişmiqyaslı işlər xüsusi vurğulanmalıdır. Həmin dönəmin proseslərinə diqqət yetirəndə görürük ki, Avropa Şurası müstəvisi ölkəmiz üçün, kifayət qədər, ciddi, ciddi olduğu qədər də ağır platforma səciyyəsi daşımaqda idi.

Birincisi, Azərbaycan quruma yeni qəbul edilmişdi. İkincisi, respublikamız mövcud platformanı özü üçün diplomatik siperə çevirməli idi ki, uğradığımız erməni təcavüzü beynəlxalq aləmin ictimai şüurunda oturuşmasın. Üçüncü məqam, ümumən, Azərbaycan həqiqətlərinin təbliğinə söykənir. Nəzərə alaq ki, erməni lobbi və diaspor təşkilatlarının fəaliyyəti ölkəmizi həm Qarabağ müstəvisində haqsız çıxarmağa, həm də, bütövlükdə, respublikamızla əlaqədar mənfi imic yaratmağa köklənmişdi. Cənab İlham Əliyevin Avropa Şurasında Azərbaycanın nümayəndə heyətinin rəhbərliyi məhz belə bir çətin və mürəkkəb zaman kəsiyinə təsadüf etmişdi. O, çətinliyi, ağırlığı uğura çevirməyi bacarmışdı.

Digər tərəfdən, cənab İlham Əliyev ARDNŞ-in Birinci vitse-prezidenti kimi də məhsuldar fəaliyyət göstərmişdi. O vaxt Azərbaycanın dünyanın bir sıra ölkələri ilə imzaladığı nəhəng neft sazişlərinin layihələrinin hazırlanmasına müstəsna əmək sərf etmişdi. Dövrün mürəkkəbliyini və bir sıra proseslərin ölkəmizin zərərinə olduğu reallığını nəzərə alsaq, onun daşıdığı missiya gələcəyimiz üçün təminat faktorlarının müəyyənləşdirilməsi kimi həssas işin öhdəsindən gəlinməsini məcburiyyətə çevirirdi. Həmin vaxt İlham Əliyev məsuliyyəti daşıya bilmək səriştəsini ortaya qoymaqla da, xalqın sevimlisinə çevrilmişdi.

Nəhayət, idman. Cənab İlham Əliyevin Baş nazir postuna doğru marafonunda onun bu gün də prezidenti olduğu Milli Olimpiya Komitəsinə rəhbərliyi mühüm halqanı təşkil etmişdi. Tam əminliklə deyə bilərik ki, o dönəm üçün populyar olan idman diplomatiyasının reallaşmasında İlham Əliyev liderliyinin böyük rolu olmuşdu. İdmançılarımızın beynəlxalq miqyasda ardıcıl və davamlı qələbələri, Azərbaycana idman ölkəsi statusu qazandırmışdı. İdman diplomatiyası isə həmin statusdan ölkəmizin həqiqətlərinin təbliği meydanı baxımından məharətli istifadə üçün baza yaratmışdı. Bu dəst-xəttin müəllifi İlham Əliyev idi.

Əlbəttə, İlham Əliyevin prezidentliyə gedən yoldakı Baş nazirlik missiyasındakı layiqlik payı yuxarıda sadaladığımız komponentlərin cəmi kimi də ümumiləşmiş təbiətə malikdir. Axı, xalqımızın ictimai şüurunda oturuşmuş lider obrazı məhz bu keyfiyyətlərin daşıyıcısı olmağı mühüm tələbə çevirirdi. Xalq lider deyərkən, gözləri önündə Heydər Əliyev şəxsiyyətinin sanbalını canlandırırdısa, onun nəhəngliyindən nümunə götürürdüsə, deməli, İlham Əliyev də liderə xas cəhətlərin toplusunu özündə birləşdirməli idi və birləşdirdi də. Ən əsası isə bu birləşdirmə dünya çapında da qəbul olundu.

2003-cü ildə Türkiyənin Baş naziri, ABŞ, Rusiya və Gürcüstan prezidentləri, İran hökuməti və digər dövlətlərin rəsmiləri İlham Əliyevin Baş nazir təyinatını çox uğurlu seçim kimi qiymətləndirdilər. Bu qiymətləndirmə həmin ölkələrin Azərbaycanla rasional əməkdaşlığa hazırlığının bəyan edilməsi idi. Bu qiymətləndirmə, eyni zamanda, İlham Əliyev şəxsiyyətinə dərin bələdçilikdən irəli gəlirdi.

Yeniliklərə həssas yanaşmaq, erudik mühakimə, rasional keyfiyyətləri özündə cəmləşdirmək, xarici siyasətdə məharət, eləcə də demokratik proseslərdəki leytmotivi aydın şəkildə dərk etmək bacarığı, beynəlxalq münasibətlər sisteminin bütün parametrlərini duymaq qabiliyyəti, bütövlük, prinsipiallıq və qətiyyət - bütün bunlar İlham Əliyevə həm ulu öndər Heydər Əliyevin etibarını, həm xalqın etimadını, həm də beynəlxalq aktorların inamını şərtləndirən müstəsna keyfiyyətlər idi.

Sonda bir daha inam barədə. Yazımızı dövlət idarəçiliyi baxımından inam və etimadın ən parlaq səhnəsini yada salmaqla tamamlamaq istərdik. Bunun üçün 2020-ci ilin 8 noyabrını xatırlamalıyıq. Prezident İlham Əliyevin Şuşanın işğaldan azad olunması müjdəsini verdiyi tarixi.

"Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir!" Bəli, tam əminliklə vurğulaya bilərik ki, 44 günlük Vətən müharibəsindəki Qələbə Heydər Əliyev şəxsiyyətinin İlham Əliyev liderliyinə dərin inamının Zəfəri idi. 4 avqust tarixi Zəfərin əsasının qoyulduğu gün kimi də əlamətdardır.

**Əvəz CAHANGİROĞLU,**
**"Xalq qəzeti"**

## Gürcüstan mətbuatı: İlk yardım təklifi Azərbaycandan gəlib

**Gürcüstanın qərbində Şovi bələdiyyəsi ərazisində baş vermiş və insan tələfatına səbəb olmuş torpaq sürüşməsi ilə bağlı ilk başsağlığı və yardım təklifi dost və qonşu Azərbaycandan gəlib.**



Bu barədə Gürcüstan mətbuatı məlumat yayıb.

Geniş oxucu kütləsinə malik "interpressnews.ge", "apsny.ge", "sputnik-georgia.ru", "24news.ge", "aktual.ge", "interpress.ge" informasiya portalları, "1tv.ge" televiziyası, "ruetavi2.ge" televiziya kanalları və daha bir neçə sayt Azərbaycanın Gürcüstana ilk başsağlığı verən və dost yardımı təklif edən ölkə olduğu barədə məlumatlar yayıblar.

Bildirilir ki, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Raça dağlıq bölgəsində Şovi kurortunun yaxınlığında sel və torpaq sürüşməsi nəticəsində baş vermiş fəlakətlə əlaqədar Gürcüstan xarici işlər nazirinə zəng vurub. Nazir ağır fəlakət zamanı həlak olanların ailələrinə və yaxınlarına, Gürcüstan hökumətinə və xalqına dərin hüznlə başsağlığı verib, yaralananlara şəfa diləyib. O, itkin düşmüş şəxslərin tezliklə tapılacağına ümid bəslədiyini bildirib. C.Bayramov Azərbaycanın hər zaman Gürcüstanın yanında olduğunu, xilasetmə tədbirləri və təbii fəlakətin fəsadlarının aradan qaldırılması istiqamətində hər bir yardım, göstərməyə hazır olduğunu vurğulayıb.

## SOCAR-ın "Microsoft"la anlaşma memorandumu



**Dünən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə "Microsoft" şirkəti arasında anlaşma memorandumu imzalanıb.**

Memorandum rəqəmsallaşma, innovasiya, informasiya texnologiyaları sahəsində infrastrukturun təkmilləşdirilməsi, insan kapitalının inkişafı, habelə kəşfiyyat, hasilat, emal, marketinq, nəqliyyat, kibertəhlükəsizlik sahələrində də əməkdaşlığı nəzərdə tutur.

SOCAR-ın təşəbbüsü ilə aparılan uğurlu danışıqların nəticəsində dünyanın qlobal texnologiya şirkəti olan "Microsoft" ilə əməkdaşlıq sənədinin imzalanması SOCAR-la yanaşı, ümumilikdə ölkə üzrə innovativ mükəmməllik mərkəzinin yaradılmasına əlverişli zəmin yaradacaq.

Beləliklə, "Microsoft" bundan sonra Azərbaycandakı fəaliyyətini daha da genişləndirəcək.

**"Xalq qəzeti"**

## Bilal Haye: Azərbaycan Pakistanın mövqeyini ən yüksək səviyyədə dəstəkləyir

**Azərbaycan dövləti və xalqı Pakistanın mövqeyini hər zaman dəstəkləyir və biz bunu yüksək qiymətləndiririk. Bunu Pakistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bilal Haye jurnalistlərə açıqlamasında deyib.**



"Bu gün biz 2019-cu ilin 5 avqust tarixində Hindistan tərəfindən Cammu və Kəşmir əyalətlərinin xüsusi muxtariyyət statusunu birtərəfli qaydada ləğv edilməsinə həsr olunmuş tədbirə toplaşmışıq. Bu məsələdə Azərbaycanın ölkəmizə hər zaman dəstək göstərdiyini xüsusilə vurğulamaq istəyirəm", - deyə diplomat qeyd edib.

**"Xalq qəzeti"**

## FHN-dən əhaliyə çağırış

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ

**Fövqəladə Hallar Nazirliyi yanğın təhlükəsizliyi ilə bağlı əhaliyə müraciət edib.**

Müraciətdə bildirilib ki, hazırda ölkədə müşahidə olunan küləkli və isti hava şəraitində yanğın təhlükəsizliyi qaydalarına kiçik etinasızlıq və ya ehtiyatsızlıq böyük fəsadlara yola aça bilər.

Qeyd olunub ki, isti hava və küləyin təsirindən ən kiçik qığılcım belə qısa zamanda böyük yanğına çevrilə, acı nəticələrə səbəb ola bilər.

Qeyd olunanlarla bağlı FHN növbəti dəfə əhaliyə müraciət edərək, xüsusilə hazırda ölkədə müşahidə olunan küləkli və isti hava şəraitində yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməyə çağırır.

## "Srebrenitsa Anaları"nın Meşəli harayı

**"Meşəlidə qətliam törədən cinayətkarlar qanun qarşısında cavab verməlidir". Bunu "Srebrenitsa Anaları" Assosiasiyasının sədri, tanınmış hüquq müdafiəçisi Munira Subaşiç deyib.**



O, müharibə cinayətkarı Vaqif Xaçatryanın ələ keçirilməsi münasibətilə Meşəli kəndinin analarına üz tutaraq bildirib ki, onlar məhkəmələrə gedib cinayətkarın üzünə baxsınlar və ona desinlər ki, törətdiklərinə görə mühakimə olunmaq, cavab vermək anı yetişib.

Munira Subaşiç sonra bildirib: "Hörmətli qurban ailələri, sizə sevgi və salamımı çatdırır, həmçinin, sizi müharibə cinayətkarını ələ keçirdiyiniz və onu ədalətə təslim etdiyiniz üçün təbrik edirəm. Oğullarınızı öldürən, sizdən alan, onlara işgəncə verən cinayətkarların qanun qarşısında cavab verməsi çox vacibdir. Yalnız haqq və ədalət uğrunda mübarizənizi davam etdirsəniz, bu, baş verəcək. Cinayətkarların oğullarınıza qarşı törətdikləri cinayətlər barədə məhkəmədə ifadə verməlisiniz. Əziz analar, siz mübarizə aparmalısınız, haqq-ədalət uğrunda mübarizədən əl çəkməməlisiniz. Məhkəməyə gedin, cinayətkarın gözünə baxın və ifadə verin. Ona deyin ki, törətdiklərinə görə cavab verməyin vaxtı çatıb".

**"Xalq qəzeti"**

# Yaşar Əliyev: İrəvanın Bakıya etnik zəmində ayrı-seçkilik ittihamı gülüncdür

(əvvəli 1-ci səhifədə)

Ən maraqlı və heyrətdoğuran hal odur ki, İrəvandakı və Xankəndidəki separatçılar uydurduqları yalan və cəfəngiyyatı əsaslandırmağa çalışırlar. Hər şeydən göründüyü kimi, erməni fitnəkarlar artıq hədlərini aşıblar, cızıqlarından çox qırağa çıxıblar. Amma Bakının qırımını və dediyi sözün arxasında durduğunu unutmasınlar. Xankəndidən İrəvana maneəsiz “magistral şosse” tələb edənlər layiq olduqları təpkini gördükdən sonra həmin Laçın yolundakı Həkəri sərhəd postumuzdan keçmək üçün Bakıya, eləcə də beynəlxalq təşkilatlara minnətçi düşəcəklər.

Bütün xəbis niyyətli fəaliyyətlərini Azərbaycana “transfer” etməyə çalışan İrəvanın finişə yaxınlaşdığı bəllidir. Bu məqamda qısa bir haşiyəyə çıxaq. Hayların tarixdən dünyaya bəlli bədnam adlarını XXI əsrdə bizə sırımaq cəhdləri təxminən altı-yeddi il bundan əvvəl Rusiyada yaşayan Maruk Anutunyan adlı musiqi alətləri ustasının böyük alman bəstəkarı İohan Sebastian Baxın erməni olduğunu ərz etməsinə bənzəyir. O zaman bu arsız hayın cavabını ruslar özləri vermişdi.




### Ermənistan “humanitar böhran”dan sui-istifadə edir

Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev BMT Təhlükəsizlik Şurasında (TŞ) “Aclıq və münaqişələrin səbəb olduğu ərzaq problemi” mövzusunda açıq debatdakı çıxışında bir çox məsələlərə aydınlıq gətirib. Misal üçün, bildirib ki, Azərbaycan Ermənistanın Qarabağ ermənilərinə humanitar yardım məsələsindən özünün pisniyyətli məqsədləri üçün sui-istifadə etmək kimi ardıcıl səylərini qınayır. “Laçın sərhəd keçid məntəqəsinin yaradılması BMT üzvü olan hər hansı digər dövlətin öz sərhədlərinin təhlükəsizliyini və mühafizəsini təmin etmək, yolboyu insanların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinin təhlükəsizliyini təmin etmək hüququ kimi, Azərbaycanın da danılmaz suveren hüququdur”, – deyən Y.Əliyev İrəvanın bu qəbildən olan iddialarının açıq-aşkar yalan və təxribat xarakteri daşıdığını TŞ üzvlərinin nəzərinə çatdırıb: “Azərbaycan heç vaxt erməni sakinlərin Laçın yolunda sərbəst hərəkətinə, eləcə də ərzaq, dərman və digər humanitar məqsədlər üçün istifadəsinə, Beynəlxalq Qırmızı Xaç Komitəsinin fəaliyyətinə əngəl yaratmayıb. Ermənistanın bu kimi yalanlarını ifşa edən çoxsaylı sənədləşdirilmiş sübutlar mövcuddur”.

Diplomat onu da xatırladıb ki, cari ilin iyulun 6-da Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın iddialarını əsassız hesab edib, eyni zamanda, İrəvanın Həkəri keçid məntəqəsi ilə bağlı müvəqqəti tədbirlər görmək tələbini yekdilliklə rədd edib.

### Ermənistan Azərbaycana təzminat ödəməlidir!

Hayastanın siyasi kursunda nifrət, dözümsüzlük, şər-böhtan və yalanın nə dərəcədə üstünlük təşkil etdiyini indi bizim kimi, onun şərqli-qərbli tərəfdarları da yaxşı bilirlər. Paşinyan hökuməti, bu sözün müstəqim mənasında, regional sülhə, bölgənin təhlükəsizliyinə və sabitliyinə qarşı ciddi təhlükə ocağına çevrilib. “Miatsum”, “dənizdən–dənizə” kimi xülyalarından əl çəkməyən Ermənistanın şovinist-daşnak iqtidarı keçən əsrin səksəninci illərinin sonunda 200 mindən çox azərbaycanlını tarixi vətənlərindən – Qərbi Azərbaycandan qovmaqla, millətimizə qarşı açıq təcavüz həyata keçirib. Üstəlik, suveren ərazimizin böyük bir hissəsini işğal edərək, Qarabağda etnik təmizləmə aparıb. Bütün bunlara nəzər salanda bu gün hayların Azərbaycan türklərinə qarşı etnik zəmində nifrət və ayrı-seçkilik ittihamlarını irəli sürməsi tarixi məntiqsizlik və ironiyadır.

Müharibənin 2020-ci ilin payızında başa çatmasına baxmayaraq, Ermənistan Beynəlxalq Ədalət Məhkəməsinin 2021-ci il dekabrın 7-də qəbul etdiyi “İrqi ədavətin qızışdırılmasının və təşviqinin qarşısını almaq üçün bütün lazımi tədbirlərin görülməsi” tapşırığına açıq-aşkar məhəl qoymayıb. Ermənistanda fəaliyyət göstərən təşkilatlar və fiziki şəxslər anti-Azərbaycan nifrətini qızışdırmaqda bu gün də davam edirlər. BMT TŞ-nin iclasındakı çıxışında Y.Əliyev “Ermənistan öz beynəlxalq öhdəliklərinə əməl etməli, silahlı qüvvələrini Azərbaycan ərazisindən tamamilə çıxarmalı, ərazi iddialarına, qanunsuz fəaliyyətlərə və dezinformasiyalara son qoymalı, mina terrorunu dayandırmalı, münaqişə zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyinə işıq salmalı, Azərbaycana, o cümlədən onun ərzaq təhlükəsizliyi sistemlərinə dəymiş zərəri ödəməli və iki dövlət arasında sülh müqaviləsi və sərhədin delimitasiyası üzrə danışıqlarda vicdanlı şəkildə iştirak etməlidir. Azərbaycan öz xalqını, suverenliyini və ərazi bütövlüyünü qorumaq əzmində qətidir və dinc, təhlükəsiz, sabit və çiçəklənən region məqsədlərinə tam sadiqdir”, - deyib.

### Niyyətiniz haradırsa, mənziliniz də ora olacaq

İkinci Qarabağ müharibəsində Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini kobud surətdə pozaraq, mülki əhalini və mülki infrastrukturu hədəf alıb, əməliyyat zonasından uzaqdakı dinc şəhərlərimizə raket zərbələri endirib. Həmin vəhşi hücumlar zamanı mülki obyektlər, evlər, məktəblər və xəstəxanalar dağılıb, mülki əhali arasında çoxlu sayda ölən və yaralanan olub. Məğlubiyyətin yaxınlaşdığını görən İrəvanın bu zaman ağır partlayıcı silahlardan, kaset bombalarından qəsdən istifadə etməsi onların əsl niyyətini ortaya qoydu. Münaqişənin sona çatmasına baxmayaraq, Ermənistanın Azərbaycan ərazisinə yerləşdirdiyi yüz minlərlə mina haqqında dəqiq və dolğun məlumatları bölüşməkdən boyun qaçırır və bu minalar mülki əhalini öldürməkdə və şikəst etməkdə davam edir.

Ermənilərin müharibə cinayətlərinin sayı və xarakteri hədsizdir. Onlar bizim əsirlərin əksəriyyətini döyüb şikəst ediblər, ağır işgəncələrə məruz qoyublar. Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş çoxsaylı vəhşiliklərin günahkarları beynəlxalq hüquqa açıq-aşkar məhəl qoymadan bu gün də cəzasız qalmaqda davam edirlər.

Fikir verin, hay özbaşınalığına göz yuman həmin ümumdünya insan haqları institutlarının əksəriyyəti Azərbaycanı “humanitar şantaj karvanına” yol verməyə çağırır. Bizsə İlahi ədalətin qalib gələcəyinə inanırıq.

**İmran BƏDİRXANLI,**
**“Xalq qəzeti”**

## Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Azərbaycanın Ermənistana təzminat məsələsi onların özlərinin yersiz və məntiqsiz iddialarına qarşı atılan addımdır. Onlar elə düşünürlər ki, öz istəklərini birtərəfli qaydada gündəliyə gətirməyi bacaracaqlar. Yaxud, qərbli daydaylarının hesabına Azərbaycanı hansısa məsələdə geri çəkilməyə məcbur edə biləcəklərini güman edirlər. Əksinə, ermənilərin belə davranışlarına qarşı Azərbaycan da gündəliyə yeni tələblərini gətirir. Bu zaman Ermənistandan fərqli olaraq, Azərbaycanın tələbləri tamamilə qanunauyğundur.

Nikol Paşinyan üçtərəfli Bəyanatda öz imzası ilə təsdiqləmiş oldu ki, Azərbaycan ərazilərini işğal edən də, müharibə aparan da Ermənistandır. Həmin ərazilərdə bütün dağıntıları törədən də onların özləridir. Buna görə cavab verməlidirlər. Bu zaman təzminat ödənməlidir. O ayrı məsələdir ki, bu gün İrəvanın təzminat ödəməyə nə gücü var, nə də imkanı. Amma o təzminat daim boyunlarında qalmalıdır. Məsələ ilə bağlı beynəlxalq audit şirkətləri cəlb olunub, bu yöndə işlər davam etdiriləcək. Hesablamalar aparılacaq və vurulmuş ziyanla bağlı ortaya dəqiq məbləğ çıxarılacaq.

İndiki mərhələdə Ermənistan hər vəchlə özünün qanunsuz iddialarına əl yeri saxlamağa və sülh danışıqlarını bataqlığa sürükləməyə çalışır. Guya, Rusiya Ukrayna cəbhəsində qalib gələndən sonra Azərbaycanın üstünə yeriyəcək, bununla da İrəvanın işləri düzələcək. Ya da birdən-birə elə bir hadisə baş verəcək ki, bunun müqabilində ermənilər hansısa şəkildə Azərbaycandan torpaq qoparmaq imkanı qazanacaqlar. Bu, baş verməyəcək.

Məsələyə ədalətli yanaşma onu tələb edir ki, əgər “Qarabağ Azərbaycandır” deyirsənsə, zəhmət çək bunu sənəddə imzanla təsdiqlə! Dövlətlərin daxili işlərinə qarışmamaq prinsipini qəbul edirsənsə, bunu da imzala və bununla da Qarabağ erməniləri ilə bağlı bütün iddialarına son qoy! Bunları etməyəcəyin təqdirdə, baş verəcəklərə görə məsuliyyət sənin üzərindədir, Ermənistan! Səfirimiz Yaşar Əliyevin yüksək tribunadan irəli sürdüyü şərtlər tam əsaslıdır. Əminəm ki, Azərbaycanın hücum diplomatiyası BMT-də bundan sonra da davam edəcək.

# Zəngəzur dəhlizi ilə bağlı İranın mövqeyi dəyişibmi?

## *İrəvanın Tehranı qıcıqlandırmaq istəklərinə baxış*

(əvvəli 1-ci səhifədə)

Hazırkı durumda İrəvanın dəhliz məntiqinə qarşı çıxması, əsasən İranın məsələyə əks münasibəti kontekstində özünü göstərən dirənişdir. Başqa sözlə desək, Tehranın müqaviməti olmasa, Ermənistanın mövcud istiqamətdə hansısa fərqli mövqe tutması mümkünsüzdür. İslam respublikasının müqavimətinə gəldikdə isə bunun ən müxtəlif təzahürlərini İran – Azərbaycan münasibətlərindəki soyuqluqlar müstəvisində xeyli görmüşük.

***

Ancaq onu da vurğulamalıyıq ki, son aylar Bakı ilə Tehran arasındakı buzların əriməyə doğru getdiyini söyləmək üçün, kifayət qədər, ciddi əsaslar yaranıb. Bəzi kiçik istisnaları çıxmaq şərti ilə bir müddət əvvələ qədərki İran – Azərbaycan psixoloji müharibəsindən, demək olar, əsər-əlamət qalmayıb, əksinə pozitiv meyillər müşahidə olunmaqdadır. Elə Bakıda İranın İRNA agentliyinin ofisinin açılması məsələsini götürək. Güman edirik, qarşıdakı müddətdə belə müsbət təzahürlərin sayı artacaq...

Bəs Zəngəzur dəhlizi? İran onunla bağlı nə fikirdədir? Axı o, əvvəllər etirazını kifayət qədər qəti formada bildirirdi. Ölkə problemi milli maraqlar kontekstində gündəmə gətirirdi. Necə oldu ki, İslam respublikası mövqeyindən daşındı? Ümumiyyətlə daşındımı? Bu kimi suallar maraq doğurmaqdadır. Hər halda, böyük siyasətdəki gedişlərin tükənməzdiyini bildirməliyik. Üstəlik, onu da nəzərə alaq ki, indiyədək Azərbaycan-İran münasibətlərində soyuqlaşmalar olub. Amma sonradan vəziyyətin müsbətə doğru dəyişdiyini görmüşük. Çox güman, indi də eyni durumdur.

İran yaşadığımız regionun böyük güclərindəndir. Orada 40 milyonadək soydaşımızın yaşaması, ölkəni müstəqil Azərbaycan Respublikası üçün ikiqat dəyərə çevirir. Yəni hər bir halda Bakı istəməz ki, Tehranla əlaqələri pisləşsin. Nəhayət, bölgədən nə İran gedəndir, nə də Azərbaycan. Ona görə hər iki tərəfin ortaq məxrəcə gəlməsi, öz aralarında səmimi mühit formalaşdırması və həmin mühitin dayanıqlılığını təminat altına alması qaçılmazdır. O cümlədən, Zəngəzur dəhlizi adlı böyük qlobal layihə çərçivəsində də razılaşmanın əldə olunması aktual əhəmiyyət daşımaqdadır.

***

Qayıdaq Türkiyə faktoruna. Daha doğrusu, Ankaranın Zəngəzur dəhlizi ilə bağlı mövqeyinə. Hesab edirik ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla görüşündə məsələyə sözgəlişi toxunmadı. Cənab Ərdoğan bildirdi ki, dəhlizin açılması, fəaliyyət göstərməsi vacibdir.

Bəli, Ankara bu məsələyə həm də Azərbaycan – Ermənistan münasibətlərinin normallaşması prizmasından yanaşır və yanaşmaqda haqlıdır. Çünki normallaşmanın preambulasını 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat təşkil edirsə, həmin sənədin bütün bəndləri icra olunmalıdır. O cümlədən, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən quru yolu açılmalıdır. Ölkəmiz bu yola Zəngəzur dəhlizi deyəcək, ya başqa necə adlandıracaq, məsələnin İrəvana heç bir aidiyyatı yoxdur. O, ilk növbədə üzərinə düşən öhdəliyi yerinə yetirməlidir. Bu öhdəliyə əməl olunmursa, deməli, Azərbaycan – Ermənistan münasibətlərində tam normallaşma yoxdur. Mövcud anlamda, Türkiyə tərəfi, əlbəttə ki, haqlıdır.

Ancaq haqq asanlıqla əldə edilmir. İran amlini elə buna görə yada salmışdıq. Heç şübhəsiz, Ankara da Zəngəzur dəhlizi məsələsində Tehranın mövqeyini götür-qoy edir. Bu anlamda cənab Ərdoğanın dəhlizin tezliklə açılmasının vacibliyini bildirməsi siyasi hesablamalarsız deyil. Belə bir durumda bəzi ekspertlər Zəngəzur dəhlizi mövzusunda Türkiyə – İran anlaşmasının olduğuna diqqət çəkirlər. Əlbəttə, onlar son aylar Azərbaycan – İran münasibətlərindəki gərginliyin səngiməsinə istinadı da yaddan çıxarmırlar.




***

Bütün vurğuladıqlarımızın fonunda əvvəlki sualımıza yenidən qayıdaq: İranın Zəngəzur dəhlizinə dair mövqeyi dəyişibmi? Əslində, məsələ Azərbaycan cəmiyyətini düşündürürsə, xəstə erməni ictimai rəyini əməlli başlı qayğılandırmaqdadır. Hazırda erməni politoloqlar, eləcə də ermənipərəstliyi ilə seçilən ekspert çevrələr Türkiyənin dəhliz məsələsində İrana nələri təklif edəcəyi barədə düşünməkdədirlər. Onlar, həmçinin Azərbaycanın İranla hansı formada ortaq məxrəcə gəldiyi mövzusunda baş sındırmaqdadırlar.

Məsələn, Suriya mənşəli rusiyalı jurnalist, bloger və siyasi təhlilçi, ermənipərəst mövqeyi ilə seçilən Abbas Cümə bildirib ki, İranın Zəngəzur dəhlizi ilə bağlı mövqeyi dəyişməz olaraq qalır. Çünki Cümə onun dəyişməsi üçün nə baş verməli olduğunu anlamadığını vurğulayıb: “Azərbaycan və ya Türkiyə İranın öz milli maraqlarını ayaqda tutmasına hansı təminat verə bilər?!”

Başqa bir məsələ də ondan ibarətdir ki, Azərbaycan – Ermənistan danışıqlarındakı irəliləyiş Tehran tərəfindən dəstəklənib. Bunu İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahian bildirib. Cənab Abdullahianın, həmçinin ölkəsinin üçüncü dövlətlərin regionun işlərinə qarışmasının qəti əleyhinə olduğuna dair fikirlərini də yada salmalıyıq...

Bu yerdə erməni politoloqların Azərbaycanla Türkiyə arasındakı əlaqəni, “Zəngəzur dəhlizi” ilə bağlı ortaq mövqelərini, habelə Azərbaycanla İsrailin münasibətlərini gündəmə gətirmələri heç də təsadüfi deyil. Məqsəd İranı qıcıqlandırmaqdır. Azərbaycan-Türkiyə-İsrail üçlüyü fonunda Zəngəzur dəhlizinin gündəmə gətirilməsi, mövcud xüsusda İranın milli maraqlarına təhdid ritorikasının qabardılması da heç şübhəsiz, qıcığı daha da artırmaq “məramına” köklənib.

Erməni ekspertlərin daha bir narahatlığı budur: Ankara və Bakı Zəngəzur dəhlizinin reallaşmasında İranın razılığını almaq üçün onu müxtəlif layihələ maraqlandırıblar. Əlbəttə, burada erməni varlığının milli maraq məsələsinə çiy münasibəti ortadadır. Yəni bu varlıq tipik erməni baxışını ortaya qoyur və hesab edir ki, onu hansısa layihə ilə heçə endirmək mümkündür. Halbuki İranın dövlətçilik tərzi bəsit ola bilməz. Deməli, durumun milli maraqlar kontekstində dəyərləndirilməməsi mümkündür. Məsələn, hansısa məqamda anlaşılmazlığın yarandığını, hazırda onun aradan qalxdığını ehtimal etmək olar.

***

Bəli, erməni siyasi dairələrinin İrana təsir göstərmək istədikləri aşkardır. Bunu düşünənlərdən biri də fikirlərini çatdırdığımız A.Cümədir. Cümə Türkiyənin beynəlxalq miqyasda, guya, etibarlı tərəfdaş olmadığını bildirir. Onun “İranlılar, sizə xatırlatmaq istərdim” başlıqlı xitabı isə aşkar acizlik dramatizmidir.

Ümumən, Ermənistanın ictimai rəyini formalaşdırmağa mükəlləf olanların hamısı Zəngəzur dəhlizindən danışanda, Cümədən heç nə ilə fərqlənmirlər. Onlar ya türk faktorunu, ya İsrail amilini qabartmaqla, Tehran üçün, bir növ, qorxu aşılayırlar. Hazırda elə görüntü var ki, İranı onun özündən çox Ermənistan düşünür. Əlbəttə, bu görüntü elə-belədən deyil. Əvvəldə də bildirdik ki, Zəngəzur dəhlizi məsələsində İrəvanın mənafeyi nəzərə alınmayacaq durumdadır. Bunu həmin “ekspert sürüsü” yaxşı bildiyindən hərəkətə keçib.

Sonda bir məqamı da vurğulayaq ki, Azərbaycanın digər ərazilərini ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvanla birləşdirən quru yolu hər zaman fəaliyyət göstərib. Yalnız torpaqlarımızın otuz ilə yaxın davam etmiş işğalı buna imkan verməyib. Hazırda işğal aradan qalxdığından, deməli, həmin yolun işləməsinə maneçiliyin də aradan qalxmasında məntiqi qanunauyğunluq var. Həm də ona görə ki, hazırda bu qanunauyğunluq dünyanın nəbzinə hesablanmış layihə şəklindədir. Dünyanın nəbzini isə tutmaq lazımdır. Güman edirik ki, İran məsələni yetərincə dərk edir. Ermənistan dərk etməyə də bilər.

**Ə.CAHANGİROĞLU,**
**“Xalq qəzeti”**

# Separatizmin mənşəyi eyni olsa da, yanaşma fərqlidir

## Ölkəmizin legitim hüququ mübahisə mövzusu ola bilməz!



**(əvvəli 1-ci səhifədə)**

44 günlük Vətən müharibəsi zamanı ölkəmizə bəzi Qərb dövlətlərinin, əsasən də Fransanın ittihamları heç bir sərhəd tanımadı. Bu cür hallar müasir dünyada haqlı olaraq ikili standartlar adlanır. Azərbaycan ikili standartlardan ən çox əziyyət çəkən ölkələrdən biridir.

***

Qərbin Azərbaycanla bağlı prinsipial məsələlərə bir çox hallarda ikili standartlarla yanaşması ölkəmizdə zaman-zaman tənqid olunub. Azərbaycan rəsmiləri bu yanaşmanın yolverilməz olduğunu dəfələrlə bildiriblər. Sonuncu dəfə bu istiqamətdə öz fikirlərini Prezident İlham Əliyev açıqlayıb. Dövlət başçımızın iyulun 22-də Şuşada "Euronyus" televiziyasına verdiyi müsahibə avqustun 1-də telekanalda yayımlanıb. Prezident İlham Əliyev qeyd edib ki, Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar: "Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına və ya Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər. Bu, onların seçimidir. Biz bunu onların buranı tərk etməsini istədiyimizə və ya Ermənistanın bizi etnik təmizləmə siyasəti aparmaqda günahlandırdığına görə etmirik. Biz onlara seçim hüququ veririk. Çünki onlar heç bir hüquqi icazə olmadan ya Ermənistan vətəndaşları olaraq, ya da heç kim tərəfindən tanınmayan "Dağlıq Qarabağ respublikası"nın vətəndaşları olaraq bizim ərazidə necə yaşaya bilərlər? Hesab edirəm ki, bu, legitim yanaşmadır. Bu yanaşma beynəlxalq təcrübəyə uyğundur. Bu yanaşma separatizmə qarşı mübarizə aparan bir çox Avropa ölkələrində gördüyümüz təcrübəyə uyğundur".

Dövlət başçımız qeyd edib ki, indi biz separatizmə qarşı mübarizə aparmaqda Ukraynaya kömək etmək üçün Avropa və Qərbin necə birləşdiyini görürük. "Bəs bizə gəldikdə nəyə görə bizim separatizmə qarşı mübarizəmizə fərqli yanaşma sərgilənir? Nəyə görə Gürcüstanın separatçı regionları ilə bağlı yanaşması Qərb cəmiyyəti və siyasətçiləri tərəfindən tamamilə anlaşılır, lakin bizim eyni mənşədən olan separatizmə son qoymaq üçün legitim istəyimiz sual altına alınır? Nə üçün İspaniya Kataloniyaya referendum keçirməyə icazə vermir, baxmayaraq ki, onların sayı 5, yaxud 6 milyon nəfərdir və yaxınlıqda öz dövləti olan ermənilərdən fərqli olaraq, onların öz dövləti yoxdur. Nə üçün biz separatizmə dözməliyik?" – deyə haqlı suallar verən



Prezident İlham Əliyev sonra qətiyyətlə bildirir ki, biz bunu etməyəcəyik.

***

Ölkəmizə münasibətdə bu yanaşma, həqiqətən də, hiddət doğurur. Azərbaycan beynəlxalq birliyin fəal üzvüdür və planetimizin üzləşdiyi problemlərin aradan qaldırılmasında fəal rol oynayır. Ölkəmiz hələ 2001-ci ildə Qərbin antiterror koalisiyasına qoşulub. NATO-ya üzv olan ölkələrin vahid mövqeyinə görə, Azərbaycan həm antiterror əməliyyatlarında, həm də vaxtilə Əfqanıstanda və digər ağır şəraitdə olan ölkələrdə həyata keçirilən sülhməramlı missiyalarda ən fəal iştirak edən ölkə kimi qəbul olunub. Azərbaycan Avropa və Qərbin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Hələ 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ilə Azərbaycan nefti Qərbə ixrac olunur. Bundan əlavə, Azərbaycan mavi yanacağı TANAP və TAP boru xətləri vasitəsilə Avropa ölkələrinin təbii qazla təmin olunmasında əhəmiyyətə malikdir. Koronavirus pandemiyası dövründə Azərbaycan BMT Baş katibinin Ümumdünya Səhiyyə Təşkilatına və kasıb ölkələrə yardım etməklə bağlı təşəbbüsünə qoşulan ilk ölkələrdən oldu. Ölkəmiz Qoşulmama Hərəkatının sədri kimi hərəkata üzv olan dövlətlərə həm maddi yardımlar, həm də peyvənd yardımları etdi. Bu gün də Azərbaycan dünyanın harasında baş verməsindən asılı olmayaraq, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üçün hökumətlərə yardımlar edir. Həmin yardımlar Xarici İşlər Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım İdarəsinin xətti ilə həyata keçirilir.

Azərbaycan sülh və sabitlik, təhlükəsizlik və əməkdaşlıq tərəfdarıdır. Bu gün Qarabağda yaşayan erməni əsilli vətəndaşların reinteqrasiyası da tam təbii proses sayılmalıdır. Konstitusiyamız hər kəsin hüquq və azadlıqlarına təminat verir. Qərb dövlətlərinin rəsmi şəxslərinin bunu bildikləri halda məsələyə fərqli yanaşma göstərməkləri heç bir çərçivəyə sığmır. Onlar ölkəmizin legitim hüququna hörmətlə yanaşmalı, bu məsələni mübahisələndirməyə çalışmamalıdırlar. Ancaq əgər bu prosesi davam etdirsələr belə, bu, heç nəyi dəyişməyəcək.

Hələ 2016-cı il yanvarın 29-da ölkə gənclərinin bir qrupu ilə görüşdə Prezident İlham Əliyev demişdi: "Biz müstəqil siyasət aparırıq. Buna görə bir çox hallarda hədəfə çevrilirik. Bizə qarşı olan təzyiqlərin, qarayaxma kampaniyalarının əsas səbəbi də odur ki, biz həmişə özümüzü ləyaqətlə aparırıq. Bütün auditoriyalarda, açıq və qapalı görüşlərdə sözümüzü deyirik, xalqımızın, dövlətimizin maraqlarını müdafiə edirik. Bəzilərinin bundan xoşu gəlmir. Ona görə müxtəlif yollarla bizə təzyiq etməyə başlayırlar. O təzyiq mexanizmləri də çox primitivdir. Burada da hesab edirəm ki, bu təzyiqləri edənlər bir balaca gərək innovasiyalara şərait yaratsınlar, yeni bir üsul icad etsinlər. Çünki eyni, şablon ittihamlara artıq heç kim inanmır. Amma bu, bizim iradəmizə, əlbəttə ki, təsir edə bilməz. Çünki mən həmişə bu fikirdə olmuşam: əgər hesab edirsən ki, sən düzgün yoldasan, gərək bu yola davam edəsən..."

Bəli, Azərbaycanın iradəsinə yaxın-uzaq xaricdəki heç bir qüvvə təsir edə bilməz. Ölkəmizə ikili standartlarla yanaşanlar bunu birdəfəlik yadda saxlamalıdırlar.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi



**Aydın MİRZƏZADƏ,**
**Milli Məclisin deputatı, politoloq**

– Prezident İlham Əliyev "Euronyus" televiziyasına müsahibəsində çox ciddi məsələlərə toxundu. Bunların hamısı aktual, düşündürücü və beynəlxalq hüquqa söykənən məsələlərdir. Onlardan biri separatizmə münasibət məsələsidir. Cənab Prezident çox düzgün olaraq, Qərbdə separatizmə ikili standartlarla yanaşıldığına dair nümunələr gətirdi. Azərbaycan öz ərazi bütövlüyü uğrunda erməni separatizminə qarşı mübarizə aparır. Amma Qərbin müəyyən dövlətləri, hətta BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan Fransa Azərbaycanın bu istəyinə qarşı çıxır. Bununla belə, Ukraynanın separatizmə qarşı mübarizəsində Qərb birləşir. Katalonların öz milli dövlətlərinin olmadığına baxmayaraq, İspaniya hökuməti sayları 6 milyon nəfərə çatan bu xalqa müstəqil dövlət yaratmaq üçün referendum keçirməyə imkan vermir.

Yəni, Avropa bir tərəfdən separatizmdən ehtiyat edir, onun baş qaldırmasının qarşısını müxtəlif yollarla alır, belə halların yaşandığı qitə ölkələrini vahid dövlət formasında saxlamağa çalışır, digər tərəfdən isə Avropanın bir hissəsi olan, Avropa dəyərləri, demokratik prinsiplərlə müstəqil dövlətini quran Azərbaycanın ərazi bütövlüyü məsələsinə ikili standartla yanaşır. Əlbəttə, bu, Qərbin müəyyən dairələrinin ölkəmizin maraqlarını hələ də qəbul etməməsi, Azərbaycanın müstəqil daxili və xarici siyasət yürütməsindən heç də razı qalmadıqları ilə bağlıdır. Azərbaycanı neft çıxaran bəzi ölkələr kimi problemlər içində görmək, amma neftdən gələn gəlirləri transmilli şirkətlərin büdcələrinə yönəltmək istəyindən irəli gəlir. Bu baxımdan müəyyən dairələr ölkəmizi, o cümlədən, separatizm problemi ilə üzbəüz qoymaqda maraqlıdırlar.

"Euronyus" adi bir telekanal deyil, nəinki Avropa məkanında, bütün dünyada yayımlanır. Onun tamaşaçıları arasında sadə izləyicilərlə yanaşı, siyasətçilər, rəsmi şəxslər, söz sahibi olan ciddi insanlar var. Cənab prezidentin bu məsələyə münasibəti onları düşündürməlidir. Şübhəsiz ki, onlar Azərbaycanın mövqeyini bir daha eşitdilər. Özləri üçün bir daha yəqin etdilər ki, Azərbaycan separatizmlə barışmayacaq. Azərbaycan suverenliyinin bütün ölkə ərazisində tam təmin olunması uğrunda çox ciddi şəkildə mübarizə aparacaq, heç kəsin diktəsi altında fəaliyyət göstərməyə razı olmayacaq. Bu, ulu öndər Heydər Əliyevin prezidentliyi zamanında da belə idi, həmin siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin dövlətimizə rəhbərlik etdiyi dövrdə də özünü açıq şəkildə göstərir.

Vətən müharibəsi zamanı Azərbaycan ərazi bütövlüyünü təmin edib, Ermənistanla sərhədə çıxıb. Aprelin 23-də Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi yaradılıb. Bununla da sərhədlərimizin bütövlüyü təmin edilib. Ermənistanın Azərbaycanın daxili işlərinə bu və ya digər formada müdaxilə etmək cəhdlərinin qarşısı qətiyyətlə alınır. Eyni zamanda, Prezident "Euronyus"a müsahibəsində Qarabağ iqtisadi rayonunda erməni sakinlərə müraciət etdi. Onların seçim etməli olduqlarını bildirdi. Qarabağdakı erməni sakinlər xunta başçılarının köləsinə çevrilməməlidirlər.

Azərbaycan dövləti ərazisində yaşayan hər bir vətəndaşın hüquq və azadlıqlarının qorunmasına təminat verir. Bu gün Azərbaycanda erməni sakinlərdən sayca qat-qat çox olan rus, talış, kürd, ləzgi, avar, gürcü icmaları var. Onların hüquqları, dinləri, dilləri qorunur. Azərbaycan XX əsrdə ərazisində katolik kilsəsi inşa olunan yeganə müsəlman dövləti oldu. Ölkəmizdə müxtəlif xalqların dini ayinləri icra olunur və bayramları keçirilir. Hesab edirəm ki, dövlət başçımızın "Euronyus"a verdiyi müsahibədəki bütün məqamlar Azərbaycanın milli maraqlarından, suveren hüquqlarından irəli gəlir.

# Arutyunyanın axırına özününkülər çıxa bilər

## Qondarma "DQR-in lideri" son aylar təkcə İrəvanın deyil, Xankəndidəki ermənilərin də dəstəyindən məhrum olub



**Arayik Arutyunyanın erməni toplumu üçün arzuedilməz şəxsə çevrildiyi məlumdur. Buna səbəb onun və əlatılarının özlərinin siyasi ambisiyaları naminə sadə erməniləri, onların maraq və mənafeyi ilə yanaşı, həm də həyatlarını qurban verməkdən çəkinməməsidir. Rəsmi Bakının sülhpərvər təkliflərindən inadla imtina edən, ölkəmizə qarşı təxribatlara ara verməyən Arutyunyan, digər yandan Qarabağdakı ermənilərin hüquqlarını kobud şəkildə pozmaqda, onları hərbi xunta rejiminin əsirinə çevirməkdədir. Arayikin məhz rəsmi İrəvan və Qarabağdakı ermənilərə münasibəti onu yerli medianın hədəfinə çevirməkdədir.**

Arayikin İrəvana və Qarabağdakı ermənilərin maraqlarına zidd siyasəti son günlər Ermənistan mətbuatında baş separatçıya yönəlik ittihamların say və çeşidinin artması ilə müşahidə edilməkdədir. Yeni qəbildən olan bu ittihamlardan biri isə onun Azərbaycanla gizli reinteqrasiya tərəfdarı olması, bu məqsədlə rəsmi Bakı ilə anlaşmağa cəhd etməsi ilə bağlıdır.

Ermənistanın "Hraparak" nəşri tərəfindən irəli sürülən bu iddiaya görə, Arayiki Bakı ilə anlaşmaya vadar edən əsas səbəb onun həm Rusiyanın, həm də İrəvanın dəstəyindən məhrum olması ilə bağlıdır. Məhz belə olduğu üçün Arutyunyanın Bakı ilə gizli anlaşmağa çalışdığını bildirən nəşr, bunun Qarabağ erməniləri üçün ağır nəticələrə səbəb ola biləcəyini qeyd edib. Nəşrin yazdığına görə, Arayik bu qərarın məsuliyyətindən özünü sığortalamaq yolunu da müəyyənləşdirib. Belə ki, Arutyunyanın dəstəyi ilə xüsusi səlahiyyətə malik "əlahiddə qurum" yaradılacaq və Bakı ilə reinteqrasiya qərarı bu qurumun dilindən elan ediləcək. Yəni, Arayik bu qərarın məsuliyyətini digər separatçılarla bölüşəcək və bununla da tənqid və ittihamlar üçün "tək hədəf" olmaqdan yayınacaq.

"Hraparak" nəşri Arayiki Azərbaycanla reinteqrasiya tərəfdarı olduğunu iddia etsə də, bugünə qədərki davranışı onun rəsmi Bakı ilə anlaşmadan uzaq olduğunu göstərir. Onun davamlı olaraq ölkəmizə qarşı təxribatlar həyata keçirməsi, Azərbaycanla bağlı mütəmadi şəkildə cəfəng fikirlər səsləndirməsi də baş separatçının rəsmi Bakı ilə anlaşmaq niyyətindən uzaq olduğunu göstərir. Arayik yaxşı başa düşür ki, onun Bakı ilə razılığa gəlməsi bölgədəki separatçılar üzərindəki hakimiyyətinin itirilməsi demək olacaq. Habelə, bu razılıqdan sonra Arayikə qarşı Ermənistandakı revanşist qüvvələrin hücumları artacaq ki, Arutyunyanın bu hücumlar qarşısında uzun müddət davam gətirəcəyi inandırıcı görünmür.

Bundan başqa, rəsmi Bakı ilə anlaşma Arayik Arutyunyanı xaricdəki erməni lobbisi ilə də üz-üzə qoyacaq ki, bu, baş separatçı üçün daha böyük problem deməkdir. Çünki xaricdəki erməni lobbisinin dəstəyi olmadan Arutyunyanın öz liderlik postunu qoruması real görünmür. Ən əsası, Arutyunyanın cinayətkar keçmişi, təfəkkürünün "Böyük Ermənistan" xülyası ilə zəhərlənməsi, türkə pataloji nifrət hissi onu Bakı ilə anlaşmadan uzaq tutan ciddi səbəblərdir. Bu baxımdan Arutyunyanın nə açıq, nə də gizli şəkildə Bakı ilə anlaşacağı inandırıcı görünmür. Şübhə yoxdur ki, Arutyunyanın Bakı ilə gizli reinteqrasiya tərəfdarı olması ilə bağılı deyilənlər onu erməni toplumunda daha da gözdən salmaq, Arayikin başqa bir separatçı ilə əvəzlənməsinin vacibliyi fikirini ictimai şüura diktə etmək niyyətindən irəli gəlir.

Göründüyü kimi, İrəvan və Rusiya ilə yanaşı, Qarabağdakı ermənilərin də dəstəyindən məhrum olan Arayikin vəziyyəti kifayət qədər mürəkkəbdir və bu, hər ötən gün bir qədər də artır. Bu baxımdan, Arayikin Azərbaycana olan nifrət və barışmaz münasibətinə baxmayaraq, rəsmi Bakı ilə anlaşma onun üçün yeganə çıxış yolu ola bilər. Çünki bugünə qədər Arayikə dəstək verən əksər qüvvələrin onu devirməsi, ermənilərin özləri tərəfindən ağır şəkildə cəzalandırması ehtimalı böyükdür. Arayiki bu labüd sonluqdan yalnız rəsmi Bakının gücü və mərhəməti  xilas edə bilər. Bunun üçünsə Arayikin Azərbaycanın təkliflərini düzgün şəkildə dəyərləndirməsi, təxribatlardan əl çəkməsi, Qarabağ ermənilərinin ölkəmizə reinteqrasiya prosesinə mane olmaması gərəkdir.

*Seymur ƏLİYEV*

Qan yaddaşımız

# O günlərdə dünya meşəlilərin harayını eşitmədi...

**“Düşmən gülləsinə tuş gəlməmək üçün yerə uzanıb sürünürdüm, “Körpəmi kürəyimə bağlayıb ayaqyalın qarın üstü ilə gedirdim”. Belə ürəkparçalayan xatırlamaları Meşəli, Kərkicahan, Kosalar, Cəmilli, Malıbəyli, Quşçular ... nəhayət, müdhiş Xocalı soyqırımlarının cəhənnəmini yaşamış soydaşlarımızın dillərindən az eşitməmişik.**

Meşəlini oda qalamış, sakinlərini güllələbaran eləmiş qatillərdən birinin son günlərdə 32 ildən sonra ”tələyə” düşüb ələ keçməsi yenidən soyqırımı şahidlərini dinləmək ehtiyacı yaradıb. Mən də Meşəli kəndində erməni vəhşiliyinin, Vaqif Çerkezoviç Xaçatryan kimi erməni cəlladlarının törətdikləri qanlı cinayətlərin hədəfi olmuş bir qrup sakinlə görüşdüm. Eşitdiklərimin



acı təəssüratından özümə gələ bilmirəm...

Həmin gün şəhid olmuş Bəhlul Hümbətovun ailəsinin məskunlaşdığı evdə kənd sakinlərindən Əvəz Mehralıyev və onun həyat yoldaşı Ziba Mehralıyeva həmin günün canlı şahidləri kimi soyqırımı törədənləri, onların başçılarından biri olmuş Vaqif Xaçatryanın qanlı cinayətlərini yana-yana, sonsuz hüznlə xatırladılar, kədərli yaşantıları ilə insanlığa ləkə olan erməni faşistlərini lənətlədilər.

Bəhlul Hümbətovun gəlini Aygün nəvələri Bəhlul və Bəhruz Hümbətovlar isə şəhidin Laçın rayonunun Fərras kəndindəki məzarını 32 ildən sonra ziyarət etmələrindən təsəlli tapdıqlarını söylədilər.

**Ziba Mehralıyevanın Meşəli qətliamı vaxtı 19 yaşı olub. Hər şeyi olduğu kimi xatırladı:**

– 1988-ci ilin fevralında Xankəndidə ermənilər açıq düşmənçiliyə başlayan gündən günümüzü qaraya boyamışdılar. Kəndlər erməni faşistləri tərəfindən zorla boşaldılırdı. Belə bir ağrını Meşəli kəndinin camaatı da yaşadı. Birinci dəfə daşnakların hücumuna məruz qalanda igidlərimiz qəhrəmanlıqla döyüşüb, kəndi geri aldılar. Bu məğlubiyyətlə barışmayan erməni faşistləri rus himayədarları ilə daha güclü hücum hazırladılar. Amma biz erməni daşnaklarının xain əməllərindən xəbərsiz idik.

Bu günlərdə Əsgəran rayonunun Badara kəndində yaşamış Xaçatryan Vaqif Çerkezoviçin Laçın buraxılış-keçid məntəqəsində yoxlama zamanı müəyyən olunaraq saxlanılmasını eşidəndə əllərimi göyə qaldırıb dedim: “İlahi, bu qaniçən Xaçatryanın bir gün cəzasına çatdıracağına qəti inanırdıq”. Tanrının səbri böyükdür. Belə zülmkar insan qatillərinin cəzası da böyük olmalıdır!

Mən gənc ana idim. 1988-ci ildən 1991-ci ilə qədər erməni faşistləri kəndlərimizi yandırır, talan edir, dünya isə bu soyqırımdan, sanki, xəbərsiz idi. Heç Bakıda özümüzünkülər də bizi eşitmədilər, harayımızı duymadılar. Həmin günün dəhşətli mənzərəsini danışdıqca içim sızlayır. Körpə balamı, ilk övladımı, oğlum İsməti kürəyimə bağlayıb, düşmənin əlinə keçməmək üçün qaynanamla birgə tüstünün içində yerlə sürünürdük. Vəhşi ermənilər kəndimizdəki ot tayalarına od vurmuşdular. Göz-gözü görmürdü. Tanrı xilas olmağımız üçün bizə nicat yolu verdi. Şaxtadan iliyimiz sızlasa da, sürünməklə kənddən, mühasirədən çıxa bildik.

Arxada insan ah-naləsindən qulaqlar tutulmuşdu. İndinin özündə belə, həmin səslər qulağıma gəlir: anam hardadır, bacım, qardaşım hardadır, atamı gördünmü? Hamının biri-birinə verdiyi sualın cavabı çox ağır idi, çox!..

Mənim atam kəndin meşəbəyisi idi. Bizim evimizdə mərkəzlə əlaqə saxlamaq üçün rabitə xətti qurulmuşdu. Çox təəssüf ki, vaxtında köməyimizə gəlmədilər. Amma atam ermənilərin biri-biri ilə danışığını eşidib bilmişdi ki, Meşəli kəndinin başını qara buludlar alıb. Təkrar edirəm, köməyimizə gələn olmadı. Atam cərrahi əməliyyatdan çıxmışdı. Düşmən əlinə keçməsin deyə, onu da sürüyə-sürüyə çayın yuxarı tərəfinə apardıq. Arxaya baxanda yanan evimizin tüstüsünü görən atam hönkür-hönkür ağladı. Dəhşət idi. Bizə sürünə-sürünə çatanlar xəbər verdilər ki, qardaşım və kənd cavanları mühasirəyə düşüblər.

**Ziba xanım dərin bir ah çəkib sözünə davam etdi:**

– O dəhşətli gündə körpəmi, ilk övladım İsməti itirdim. Kürəyimə sarımışdım, şaxtaya dözmədi, körpəm donmuşdu, onu nəfəsimlə isidə bilmədim. Bir ananın körpəsini donmuş halda görüb fəryad qoparmasını təsəvvür edirsinizmi?.. Tanrı Xaçatryanların cəzasını verməlidir!

Ayağımızda corab buz bağlamışdı. Ayaqlarımız şaxtadan keyimişdi. Amma yenə də düşmən əlinə keçməmək üçün




var gücümüzlə sürünürdük. Böyüklər deyirdilər ki, ayağa qalxsanız düşmən gülləsinə qurban gedəcəksiniz.

Nə yaxşı, Laçın yolu bağlanmamışdı. Yeganə yolumuz, ümidimiz ora idi. Xocalı ilə məsafəmiz 18 kilometr idi. Ağdərə, Xocavənd, Əsgəran, Ağdama, Xocalıya gedən yolları düşmən bağlamışdı. Hər tərəfdən mühasirəyə alınmışdıq. Yeganə yolumuz Laçın istiqamətinə idi. Ona görə də, şəhidlərimizi də maşına yığıb Fərraş kəndinə apardıq. İndiyə kimi şəhidlərimizin qanına boyanmış maşının dəhşət saçan mənzərəsi gözlərimin qarşısındadır...

Ziba Mehralıyeva şəhid Bəhlul Hümbətovun nəvələrinin Vətənə layiq övladlar olmasını qeyd etməklə yanaşı, həmin gün şəhid olan, Laçının Fərraş kəndində torpağa qovuşan Meşəli şəhidlərinin xatirəsini ehtiramla xatırladı və söylədi:

– Şəhidlərimizin adını ehtiramla çəkmək istəyirəm: Bəhlul Hümbətov, ailəliklə şəhid olan kəndlilərimizin adını bu gün də ürək ağrısı ilə deyirəm: Qənimət Quliyev, Quliyeva Ruba, Quliyev Mətləb, Quliyev İsmayıl. Digər bir ailə: Novruzov Novruz, Novruzova Adilə, Novruzov Zakir, Novruzova Rahilə, Novruzova Rübabə, Mehrəliyev Əli, İbadullayev Nadir. Ümumillikdə 25 şəhidimiz oldu. Onların qanı yerdə qalmadı. 44 günlük Vətən müharibəsində Müzəffər Ordumuz tərəfindən qisasımız alındı. Biz Meşəliyə mütləq qayıdacağıq, o yerlər – meşələr, çaylar, dağlar həsrətlə doğma sakinlərini gözləyir.

Əvəz Mehralıyev həyat yoldaşının fikrini tamamlayaraq şəhid Bəhlul Hümbətovun nəvələrini qürurla bizə təqdim etdi və dedi ki, Bəhlul da, Bəhruz da Vətənin keşiyində ləyaqətlə durub, hərbi qulluğu şərəflə yerinə yetiriblər, babalarının şəhid olduğu Meşəli kəndini görmək arzusu ilə yaşayırlar və inanırlar ki, həmin günə çox az qalıb.

Mehralıyevlər ailəsi Meşəli kəndində amansız qırğın törətmiş Vaqif Xaçatryan kimi erməni cəlladlarının haqq-ədalət məhkəməsi qarşısında layiqli cəza alacaqlarına qəti əmindir:

– Bu gün tarix və zaman qarşısında Xaçatryanlar cavab verməli, cəzalarına çatmalıdırlar. Onların qana bulaşmış əlləri, qolları qandallanmalıdır! Var olsun, ədalətli qalib ordumuz! Biz Meşəliyə qayıdacağıq.

**Kəmalə ABDİNOVA, jurnalist**

# Mina təhlükəsi ilə bağlı müraciət

**Azərbaycanda fəaliyyət göstərən 10-a yaxın qeyri-hökumət təşkilatlarının rəhbərləri humanitar minatəmizləmənin sülhün qurulması prosesindəki potensialından istifadəyə çağırışla əlaqədar beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıblar.**

Azərbaycan vətəndaş cəmiyyətinin təmsilçiləri BMT-nin Baş katibi cənab Antonio Quterreşə, BMT Baş Assambleyasının prezidenti cənab Çaba Köröşiyə, BMT-nin İnsan Hüquqları Şurasının prezidenti cənab Vatslav Balekə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı cənab Volker Türkə, BMT-nin Mina Təhlükəsizliyi Xidmətinin direktoru xanım İlen Köhnə, Avropa İttifaqı, Avropa Şurası təsisatlarının və bu qurumlara üzv olan ölkələrin rəhbərlərinə, Böyük Britaniya rəhbərliyinə müraciət edərək onların hər birini Ermənistanın Azərbaycan Respublikası ərazisində yaratdığı mina təhlükəsini tezliklə aradan qaldırmağa güclü dəstək verməyə çağırırlar.

Bildirilir ki, Azərbaycan minalar və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında ilk yerlərdən birini tutur. İlkin məlumatlara görə, Ermənistan işğal dönəmində Azərbaycan torpaqlarına 1 milyondan çox mina basdırıb.

2020-ci ildə 44 günlük müharibədən sonra 303 nəfər işğaldan azad edilmiş ərazilərdə mina qurbanı olub. 1991-ci ildən ötən dövr ərzində Ermənistanın basdırdığı minalardan zərərçəkənlərin ümumi sayı 3400 nəfərə yaxınlaşır.

Bir milyona yaxın məcburi köçkün öz doğma yurdlarına təhlükəsiz qayıdışı səbirsizliklə gözləyir. Qayıdış üçün həmin ərazilər minalardan sürətlə təmizlənməlidir, bunun üçün beynəlxalq donorların minatəmizləmə işlərinə, minadan zərərçəkənlərə güclü dəstəyinə böyük ehtiyac var.

Minatəmizləmə həm də BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün əsas şərtlərdən biridir. Məhz bu səbəbdən Azərbaycan özü minatəmizləmə üzrə Dayanıqlı İnkişaf Məqsədi formalaşdıraraq onu milli məqsəd kimi qarşısına qoyub. Minalar və partlamamış hərbi sursatlara qarşı mübarizədə beynəlxalq tərəfdaşlığın qurulması, resursların mobilizasiyası, minadan zərərçəkən ölkələrə xüsusi diqqətin ayrılması üçün qlobal miqyasda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün Azərbaycan humanitar minatəmizləmə üzrə yeni və xüsusi - 18-ci Dayanıqlı İnkişaf Məqsədini də təklif edib. Hesab edirik ki, bu, dünya birliyinin diqqətinin qlobal mina təhdidinə yönəldə bilər.

Biz vətəndaş cəmiyyəti təşkilatları olaraq sizləri Azərbaycanın mina probleminin aradan qaldırılmasına yaxından dəstək verməyə, Ermənistana təzyiqlər etməyə, mina təhdidinin aradan qaldırılmasında ədalətli mövqe nümayiş etdirməyə çağırırıq.

**“Xalq qəzeti”**

# Keniyanın haqq səsi: ermənilərin iddiaları əsassızdır

**Keniyanın Turkana Bio Aloe Təşkilatının sədri Eliud Emeri beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan hökumətinin və Qarabağdakı qeyri-qanuni rejimin qalıqlarının öz siyasi məqsədlərinə çatmaq üçün yaratdıqları süni maneələrə cəlb etmək məqsədilə Keniyada fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları adından bəyanat yayıb.**

Sənəddə qeyd olunur: “Biz - Keniyada fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları bu bəyanatla Azərbaycanın Qarabağ regionunun erməni sakinlərinin reinteqrasiyasının Ermənistan tərəfindən əngəllənməsini pisləyirik.

Ermənistanın bir sıra məmurları Laçın yolu haqqında siyasi manipulyasiya və spekulyasiya yaratmağa çalışırlar. Bu iddialar tamamilə əsassızdır və təkzib edilir”.

Bəyanatda, həmçinin vurğulanıb ki, Azərbaycan tərəfinin Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin ehtiyaclarını qarşılamaq üçün Ağdam-Xankəndi yolundan istifadə etmək təklifi beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilib.

“Beynəlxalq ictimaiyyət bilməlidir ki, Azərbaycan blokada yaratmır, əksinə, yardım təklif edir. Lakin qeyri-qanuni rejimin qalıqlarının təxribatları humanitar yardımdan imtina deməkdir.



Biz Ermənistan hökumətini təxribatları dayandırmağa çağırırıq. Çünki onlar Qarabağın erməni sakinlərinin Azərbaycana reinteqrasiyasına əngəl olur, regionda sülhə və təhlükəsizliyə nail olmaq üçün süni maneələr yaradırlar.

Biz beynəlxalq təşkilatlara müraciət edirik ki, adekvat reaksiya versinlər və Qarabağ ermənilərinin Azərbaycana reinteqrasiyası prosesini dəstəkləsinlər, - deyə bəyanatda vurğulanıb.

# Pənahəli xanın nəslinin nümayəndəsi babalarının yurdunda

**Qarabağ xanlığının qurucusu Pənahəli xanın nəslinin İspaniyada yaşayan nümayəndəsi Qulam Əkbərov ailəsi ilə birlikdə ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər edib.**

Səfər zamanı Əkbərovlar ailəsinin üzvləri əvvəlcə ulu babalarının sarayının qalıqlarını və onun adını daşıyan küçəni ziyarət ediblər.



Sonra xan nəslinin davamçıları Bazarbaşı meydanı, Cıdır düzü, güllələnmiş heykəllərin yerləşdiyi meydan, Şuşa Bəyannaməsinin imzalandığı məkan, Xurşidbanu Natəvanın evi, “Xan qızı” bulağı, Molla Pənah Vaqifin məqbərəsi, Gəncə Qapısı, Yuxarı Gövhərağa məscidi, İsa bulağı və digər görməli yerlərdə olublar.

Əkbərovlar ailəsinə Qarabağın incisi olan Şuşada aparılan yenidənqurma və abadlıq işləri barədə ətraflı məlumat verilib.

Qulam Əkbərov bildirib ki, xalqımızın Qarabağda qazandığı Qələbənin möhtəşəmliyini Şuşada daha dərindən hiss edir və bu günü heç vaxt unutmayacaq.

# Gürcüstanda torpaq sürüşməsi: Ölənlərin sayı 11-ə çatıb



**Gürcüstanın Şovi bələdiyyəsi ərazisində baş vermiş torpaq sürüşməsi nəticəsində ölənlərin sayı artıb.**

Gürcüstan Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, xilasedicilər dünən daha 4 nəfərin cəsədini torpaq altından çıxarıblar. Bununla da təbii fəlakət qurbanlarının sayı 11 nəfərə çatıb.

Xilasedicilər 210 nəfəri təhlükəsiz əraziyə təxliyə ediblər. Daha 15 nəfər itkin düşmüş hesab olunur.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin rəhbərliyi ilə Raça bölgəsində fövqəladə qərargah yaradılıb. Xilasetmə əməliyyatları davam edir.

Xatırladaq ki, avqustun 3-də günorta saatlarında Şovi ərazisində torpaq sürüşməsi baş verib, çaylar daşıb, yollar, körpülər, kurort zonasındakı kotteclər dağılıb.

**“Xalq qəzeti”**

# Ukraynalı uşaqlar Azərbaycanda

**Ukraynadakı müharibədən əziyyət çəkmiş daha 30 nəfər ukraynalı uşaq Azərbaycana gətirilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkil etdiyi düşərgəyə cəlb edilən uşaqlar Bakı, Şamaxı, Qəbələ və Şəki şəhərlərində 14 günlük müxtəlif reabilitasiya tədbirlərinə cəlb olunacaqlar.

Peşəkar psixoloqlar tərəfindən keçirilən fərdi konsultasiyalar, qrup terapiyaları, meditasiya və yoqa məşğələləri, psixo-sosial təlimlər, ustad dərsləri va-



sitəsilə həmin uşaqların emosional vəziyyətlərinin stabilləşməsi, cəmiyyətə inteqrasiyaları təmin ediləcək.

Qeyd edək ki, onlar üçün ingilis dili kursları, ölkəmizin tarixi yerlərinə, muzeylərinə ekskursiyalar da təşkil olunacaq.

**“Xalq qəzeti”**

# “Azərişıq” polisə işıq verdi

**Daxili İşlər Nazirliyi tərəfindən Ağdam-Xankəndi avtomobil yolunda qurulan yeni polis postu “Azərişıq” ASC tərəfindən elektrik enerjisi ilə təmin olunub.**

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq işğaldan azad olunmuş ərazilərdə xüsusi dövlət əhəmiyyətli obyektlər, hərbi hissələr və sərhəd zastavaları fasiləsiz elektrik enerjisi ilə təchiz edilib.

**Qəzənfər QASIMOV, “Xalq qəzeti”**

# İctimai fəallar korrupsiyaya qarşı mübarizəni gücləndirirlər

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyində TƏBİB ilə birgə korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair Milli Fəaliyyət Planı üzrə görülən işlərlə bağlı ictimai müzakirə keçirilib.**



Tədbir iştirakçılarına dövlət orqanlarında vətəndaş cəmiyyətinin təmsilçiliyi, ictimai iştirakçılıq, TƏBİB-in tabeliyində olan tibb müəssisələrində aparılan islahatlarla bağlı maarifləndirmə işlərində qeyri-hökumət təşkilatlarının rolu barədə məlumat verilib, eyni zamanda, Milli Fəaliyyət Planının aidiyyəti bəndlərinin icrası ilə bağlı təkliflər irəli sürülüb.

**Q.QASIMOV, “Xalq qəzeti”**

# Asiya İnfrastruktur İnvestisiya Bankı Azərbaycanda

## *Bu beynəlxalq maliyyə qurumu ölkəmizdə "yaşıl" və "ağıllı" konsepsiyaları dəstəkləyir*




**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" də ölkəmizdə investisiya mühitinin daha da yaxşılaşdırılmasına müsbət təsir göstərib. Başqa sözlə, adıçəkilən Strateji Yol Xəritəsinin müvafiq hədəflərini reallaşdırmaqla biznes mühitinin səmərəliliyinin artırılması istiqamətində ortamüddətli xərclər strategiyası çərçivəsində yeni siyasətin tətbiqi, maliyyə–bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi gerçəkləşdirilib, həmçinin beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığı möhkəmləndirib.

Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) bu baxımdan xüsusilə diqqət çəkir. Baş ofisi Çin Xalq Respublikasının Pekin şəhərində yerləşən və nizamnamə kapitalı 100 milyard dollar olan AİİB 2014-cü il oktyabrın 24-də təsis edilib. Həmin gün Asiya qitəsinin 21 ölkəsi bu nəhəng investisiya bankının yaradılması məqsədilə memorandum imzalayıb. Ötən müddətdə bankın dünyanın 106 ölkəsində fəaliyyət göstərən səhmdarları tərəfindən yüksək göstəricilər əldə olunub.

Bank etibarlı investisiyalar üçün uzunmüddətli maliyyələşdirmənin təqdim olunması, eləcə də əsasən Asiya regionunda həyat şəraitinin yaxşılaşdırılması və iqtisadi inkişafın təmin edilməsi kimi məsələlərin həllinə mühüm önəm verir. Asiya qitəsində iqtisadi artımın stimullaşdırılması və infrastrukturla bağlı layihələri maliyyələşdirən bank, həmçinin regionda kənd təsərrüfatının və infrastrukturun inkişafı, enerji təchizatı, ətraf mühitin mühafizəsi, nəqliyyat və telekommunikasiya, su təchizatı və kanalizasiya, şəhərsalma və logistik mərkəzlərin yaradılmasında da xüsusi fəallıq göstərir.

Bankın əməkdaşlıq etdiyi ölkələr sırasında Azərbaycan həmişə diqqət çəkib. Respublikamızın dəmir yolu, gəmiçilik və digər infrastruktur sektorları AİİB üçün böyük maraq kəsb edib. Maliyyə qurumunun investisiya əməliyyatları üzrə vitse-prezidenti Konstantin Limitovski mediaya müsahibəsində bununla bağlı deyib: "Bank bu gün Trans-Anadolu qaz kəmərinin (TANAP) genişləndirilməsi, Azərbaycanda dəmir yolunun müasirləşdirilməsi, gəmiçilik sənayesinin, müxtəlif infrastruktur sahələrinin inkişaf etdirilməsi kimi layihələri əməkdaşlığın gücləndirilməsində prioritet istiqamətlər kimi diqqətdə saxlayır".

K.Limitovskinin sözlərinə görə, Azərbaycan 2016-cı ildən AİİB ilə əməkdaşlıq edir, eyni zamanda, bankın təsisçi üzvləri və müştəriləri arasında nüfuzu ilə fərqlənir.

Yeri gəlmişkən, Azərbaycanla bank arasında ilk birgə layihə Cənub Qaz Dəhlizinin mühüm seqmentlərindən sayılan Trans-Anadolu Qaz Boru Kəməri ilə (TANAP) bağlı olub. Belə ki, 2016-cı ilin dekabr ayında AİİB TANAP-ın çəkilişi üçün Azərbaycana 600 milyon dollar məbləğində kredit ayırıb. Bundan əlavə, bank COVID-19 zamanı ölkə iqtisadiyyatının bərpasına və pandemiyanın fəsadlarının yumşaldılmasında kömək etmək üçün 100 milyon ABŞ dolları məbləğində dəstək göstərib.

Bankın Azərbaycan üçün ayırdığı ikinci kredit isə 2021-ci ilin iyul ayına təsadüf edib. Xatırladaq ki, o zaman adıçəkilən maliyyə qurumu Azərbaycan Respublikasının "COVID-19-a Aktiv Müdaxilə və Xərclərə Dəstək Proqramı" adlı layihəyə 100 milyon dollar məbləğində kredit ayırıb. Həmin vəsait ölkəmizdə COVID-19 infeksiyasının mənfi tibbi, sosial və iqtisadi təsirlərinin azaldılması üzrə hərtərəfli planın həyata keçirilməsinə yardım məqsədi daşıyıb.

AİİB-in əməliyyat portfeli fəaliyyət göstərdiyi 7 il ərzində 35 milyard dollara çatıb və bank ötən müddətdə öz missiyasına uyğun olaraq Asiya ölkələrinin infrastruktur baxımdan inkişafını dəstəkləməkdə davam edib.

Hazırda bankın bütün regionlar üzrə portfeli suveren kreditlərin və investisiyaların təxminən 75-80 faizini təşkil edir, özəl sektorun payı isə cəmi 20-25 faizdir. Məqsəd 2030-cu ilə qədər sərmayənin yarısının özəl sektora və qeyri-suveren layihələrə sahib olmasıdır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Nihad ƏLİYEV,**
**iqtisadçı-ekspert**



AİİB hazırda müxtəlif ölkələrdə günəş və külək elektrik stansiyalarının tikintisi üzrə layihələri fəal şəkildə maliyyələşdirir, çünki bərpa olunan enerji mənbələrinə investisiya yatırmaq özəl sektorda bu maliyyə qurumu üçün əsas sahələrdən biridir. Belə ilk layihələrdən biri Qazaxıstanın Janatas külək stansiyasıdır. AİİB, həmçinin "Waste-to-Energy" (tullantılardan enerji) ilə bağlı layihələrə də diqqət yetirir.

Onu da xatırladaq ki, bank indiyədək Türkiyədə enerjiyə qənaət edən qurğuların, həmçinin Özbəkistanın Sırdərya vilayətində 1500 meqavat gücündə qazla işləyən elektrik stansiyasının layihəsini hazırlayıb.

AİİB-in fəaliyyəti haqqında yayılan məlumatda bildirilir ki, hər hansı bir ölkənin bu qurumdan maliyyə alması üçün onun təqdim etdiyi layihə bankın missiyasına və mandatına uyğun olmalıdır. Başqa sözlə, bank "yaşıl infrastruktur", rəqəmsal, enerji, həmçinin əhalinin kritik ehtiyaclarını dəstəkləyən infrastruktur layihələri ilə maraqlanır və həmin təşəbbüsləri fəal şəkildə nəzərdən keçirir. Həm də bu zaman özəl sektorun kapitalını birgə investisiya fəaliyyətlərinə cəlb etməyə xüsusi önəm verir. Çünki belə halda hər bir layihə ölkəyə və investorlara iqtisadi fayda gətirir, iqtisadi cəhətdən səmərəli və maliyyə baxımından dayanıqlı olması ilə diqqət çəkir.

AİİB-in fəaliyyətində əsas prinsip ölkənin karbonsuzlaşdırılmasına, regionda əməkdaşlığın inkişafına və müasir texnologiyaların istifadəsinə töhfə verən layihələrə yönəldilməsidir. Bir sözlə, bank uzunmüddətli perspektivdə davamlı olacaq, özəl sektor investisiyalarını cəlb edəcək layihələrdə iştiraka həssaslıqla yanaşır və bununla da dayanıqlı infrastrukturun maliyyələşdirilməsi yolu ilə Asiya regionunda inkişafı stimullaşdırmağı qarşıya mühüm vəzifə kimi qoyur.

# Mikayıl Cabbarov Pakistanın ticarət naziri ilə görüşüb

**Nazirlikdən bildirilib ki, onlayn formatda keçirilən görüşdə dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Pakistan əlaqələrinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulanıb.**



Bildirilib ki, iqtisadi-ticari əməkdaşlığın genişləndirilməsi Pakistanla tərəfdaşlığımızın əsas prioritetlərindəndir və bu sahəyə xüsusi töhfə verəcək Preferensial Ticarət Sazişinin imzalanması ilə bağlı işlər davam etdirilir.

Tərəflər Preferensial Ticarət Sazişinin imzalanması istiqamətində görülən tədbirləri, birgə layihələrin icrası və əməkdaşlığın gündəliyində olan digər məsələləri müzakirə ediblər.

***"Xalq qəzeti"***

# Dövlət büdcəsinin gəlirləri 33 milyard manatdan çox olacaq

***Maliyyə Nazirliyinin məlumatına görə, cari ilin sonuna dövlət büdcəsinin gəlirlərinin 33 milyard 890,5 milyon manat təşkil edəcəyi gözlənilir ki, bu da ilkin təsdiqlənən proqnoz göstəricisinə nəzərən 10,1 faiz çoxdur.***



Məlumatda bildirilir ki, dövlət büdcəsinin gəlirlərinin 52,3 faizi və ya 17 milyard 739,7 milyon manatı neft-qaz sektorunun, 47,7 faizi və ya 16 milyard 150,8 milyon manatı qeyri–neft–qaz sektorunun payına düşür.

Bu ilin ilkin proqnoz göstəriciləri ilə müqayisədə neft–qaz sektoru üzrə gəlirlərin 1 milyard 442,7 milyon manat və ya 8,9 faiz, qeyri-neft–qaz sektoru üzrə isə 1 milyard 673,8 milyon manat və ya 11,6 faiz artması gözlənilir.

Bütövlükdə dövlət büdcəsi gəlirlərinin tərkibində qeyri–neft–qaz üzrə gəlirlərinin xüsusi çəkisi ilkin proqnoz göstəricisinə nisbətən 0,7 faiz bəndi artaraq 47,7 faiz təşkil edəcək.

Məlumata görə, dövlət büdcəsinin yenidən baxılmış xərclərinin 36 milyard 624,8 milyon manat səviyyəsində olacağı gözlənilir ki, bu da ilkin proqnoz göstəriciyə nisbətən 9,8 faiz çoxdur.

# BTC boru kəməri ilə 17 ildə 546 milyon ton neft nəql edilib

***Bu ilin birinci yarısında "Bakı–Tbilisi–Ceyhan" (BTC) üzrə əməliyyat xərclərinə, təxminən, 59 milyon dollar, əsaslı xərclərə isə 18 milyon dollar vəsait xərclənib.***



BP şirkətinin məlumatına əsasən, hesabat dövründə 1768 kilometr uzunluğunda olan BTC kəməri istifadəyə verildiyi 2006-cı ilin iyun ayından cari ilin ikinci rübünün sonunadək bu boru xətti ilə ümumilikdə təqribən 546 milyon tondan çox (4,1 milyard barel) xam neft nəql edilib. Ceyhan limanında 5 min 402 tankerə yüklənərək dünya bazarlarına göndərilib. BTC-nin ümumilkdə 4 milyard barel neft ixracına nail olması əlamətdar bir uğur kimi 2023-cü il yanvarın 18-də qeyd edilib.

İlk 6 ay ərzində BTC vasitəsilə ixrac olunan təqribən 15 milyon ton (təxminən 114 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 158 tankerə yüklənərək yola salınıb. Hazırda BTC boru kəməri əsasən, Azərbaycandan "Azəri–Çıraq–Günəşli" nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur.

***"Xalq qəzeti"***



# "Azərenerji"nin xalis mənfəəti 3 dəfə artıb

**"Azərenerji" ASC 2022-ci ili 436 milyon manat xalis mənfəətlə başa vurub. Səhmdar cəmiyyətin məlumatına əsasən, bu, 2021-ci illə müqayisədə 3 dəfə çoxdur. Bununla da, qurumun yığılan zərəri 16,8 faiz azalaraq 2 milyard 164 milyon manata düşüb.**

Cari il yanvarın 1-nə "Azərenerji"nin aktivləri 4 milyard 522 milyon manat olub ki, bu da illik müqayisədə 9 faiz çoxdur. Hesabat dövründə səhmdar cəmiyyətinin öhdəlikləri 11,6 faiz azalaraq 2 milyard 212 milyon manata düşüb, balans kapitalı isə 40,4 faiz artaraq 2 milyard 309 milyon manata çatıb.

Xatırladaq ki, "Azərenerji" 1997-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 1 milyard 760 milyon manatdır. 100 faiz dövlətə məxsus qurum ölkənin əsas enerji istehsalçısı və ixracatçısıdır.

# Bərdə–Ağdam dəmir yolu yenidən çəkilir



**Tarixi Bərdə–Ağdam dəmir yolu xəttində yenidənqurma işləri sürətlə davam etdirilir.**

Azərbaycan Dəmir Yolları" QSC-nin yaydığı xəbərə əsasən, uzunluğu 47,1 kilometr olan yolun 90 faiz layihələndirilməsi artıq yerinə yetirilib. Uzunölçülü relslər 100 faiz quraşdırılıb, 128 mühəndis qurğusunun tikintisi başa çatdırılıb. Layihənin 2023-cü ildə yekunlaşdırılması nəzərdə tutulub.

***"Xalq qəzeti"***

# "Əsrin müqaviləsi"ndən güc alan tarixi tərəqqi

**Ölkəmizin iqtisadi müstəqilliyi üçün möhkəm təməl, etibarlı baza yaradan "Əsrin müqaviləsi" çərçivəsində əməliyyatlar uğurla davam etdirilir. Əvvəlki dövrlərdə olduğu kimi, bu ilin yanvar-iyun aylarında da "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi üzrə tikinti-quraşdırma, qazma və hasilatla bağlı əməliyyatlar sahəsində yüksək nəticələr əldə edilib.**



"BP-Azərbaycan" şirkətinin 2023-ci ilin birinci yarısının nəticələrinə dair hesabatına əsasən, yanvar-iyun aylarında konsorsium iştirakçıları tərəfindən "Azəri-Çıraq-Günəşli" layihəsinin əməliyyat tədbirlərinə 232 milyon dollar, əsaslı məsrəflərinə isə 746 milyon dollar xərclənib.

BP şirkəti və tərəfdaşları bu ilin ilk yarısında "Yeni əsrin müqaviləsi" adlandırılan neft layihəsi çərçivəsində bir sıra uğurlara imza atıblar. İlin əvvəlindən "Azəri-Mərkəzi-Şərqi" (ACE) layihəsi üzrə nəzərdə tutulmuş tikinti-quraşdırma işləri qrafik əsasında davam etdirilib. Belə ki, ötən 6 ay ərzində ACE platformasının dayaq bloku tikildiyi Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodundan dənizə yola salınaraq suyun 137 metr dərinliyində öz daimi yerinə quraşdırılıb. Qurğu martın 16-da dənizə yola salınanadək istismar sınaqları vasitəsilə tam yoxlanılıb.

ACE platformasının üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri isə Bibiheybətdəki tikinti-quraşdırma sahəsində davam etdirilib. Xatırladaq ki, aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev üst modulların inşa edildiyi sahəyə baş çəkərək tikintisi artıq başa çatmış qurğunun dənizə yola salınmazdan öncəki hazırlıq vəziyyəti ilə tanış olub.

Cari ilin ilk yarısında üst modulların quruda aparılması planlaşdırılan əsas istismar sınaqları da uğurla başa çatdırılıb. Bu işlərə isə qazma qurğusunun işə salınması və sınaq əməliyyat işlərinin aparılması müddətinin bitməsi, inteqrasiya olunmuş qurğu sisteminin, bütövlükdə, əminlik sınaqları və sistemi dayandırarkən təzyiqin aşağı salınması əməliyyatının təhlükəsizlik sınağı daxil idi. Belə təhlükəsizlik sınağı ilk dəfə quruda, həm də azot qazından istifadə edilməklə icra olunub. Əvvəllər isə belə sınaqlar yalnız dənizdə platforma işə salınarkən sistemə karbohidrogen vurmaqla keçirilirdi ki, ACE-də daha buna ehtiyac olmayacaq. Bütün bu işlər bitdikdən sonra üst modullar təhlükəsiz şəkildə lazımi hündürlüyə qaldırılaraq yükləmə çərçivəsi qurğusunun üzərinə endirilib ki, oradan da daşıma barjının üstünə sürüşdürülsün.

May ayının 30-da STB-1 daşıma barjı Bibiheybət tikinti-quraşdırma sahəsinə gətirilib və üst modulların barja yüklənməsi əməliyyatı üçün hazırlıqlar başlanıb. İyul ayının 2-də isə üst modullar STB-1 barjının üzərinə yüklənib. Artıq qurğu dənizdə dayaq blokunun üzərinə quraşdırılmaq üçün avqustun əvvəlində AÇG yatağı sahəsinə yola salınmaq üçün tam hazır vəziyyətə gətirilib.

İlin birinci yarısında, həmçinin sualtı izolyasiya konstruksiyası işə salınıb və boruların üst modullarda izolyasiyası işləri tamamlanıb. Bundan əlavə, dalğıc gəmisi mövcüd 30-düymlük qovşağın birləşdirilməsini başa çatdırıb, "Sitadel" gəmisi isə izolyasiya konstruksiyasının istiqamətinin dəyişdirilməsi işlərini yekunlaşdırıb. Hesabat dövründə Mərkəzi Azəri platformasında ACE üçün nəzərdə tutulmuş telekommunikasıyaların modifikasiyası üzrə istismar sınaqları da başa çatdırılıb. Bütövlükdə isə, ikinci rübün sonunadək ACE layihəsi üzrə işlərin 89 faizi uğurla yekunlaşdırılıb.

Cari ilin yanvar-iyun ayları ərzində "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan neft hasilatı sabit, təhlükəsiz və etibarlı şəkildə davam etdirilib. Hesabat dövründə AÇG-də, ümumilikdə, 137 neft hasilat quyusu, 44 su injektor quyusu və 7 qaz injektor quyusu istismarda olub. Bu ilin ötən dövründə istismarda olan 6 hasilat platforması vasitəsilə gündə orta hesabla 375 min barel və ya ümumilikdə, təxminən, 68 milyon barel, yəni 9 milyon ton neft çıxarılıb. Ümumi hasilatın 23 min bareli "Çıraq", 98 min bareli "Mərkəzi Azəri", 91 min bareli "Qərbi Azəri", 61 min bareli "Şərqi Azəri", 67 min bareli "Dərinsulu Günəşli" və 35 min bareli "Qərbi Çıraq" platformalarının payına düşüb.

AÇG-də neft hasilatının sabit saxlanılması məqsədilə konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. Belə ki, 6 ay ərzində müqavilə sahəsində 3 neft hasilatı və 4 su injektor quyusu tamamlanaraq istismara daxil edilib.

2023-cü ilin birinci yarısında AÇG və "Şahdəniz" yataqlarından neft və qazın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam etdirilib. Yanvar-iyun aylarında AÇG-dən Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 6 milyon kubmetr, ümumilikdə, isə 1,1 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Cari ilin yanvar-iyun aylarında terminaldan 115 milyon bareldən çox neft və kondensat ixrac olunub. Bunun da 114 milyon bareli Bakı-Tbilisi-Ceyhan, 1 milyon bareli isə Bakı-Supsa kəmərlərinin payına düşüb. İlin ilk altı ayı ərzində terminaldan, həmçinin gündəlik orta hesabla, təxminən, 72 milyon kubmetr Şahdəniz qazı göndərilib.

Xam nefti dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, əvvəlki dövrlərdə olduğu kimi, 2023-cü ilin yanvar-iyun aylarında da fəaliyyətini uğurla davam etdirib. "BP-Azərbaycan" şirkətinin bu ilin birinci yarısının nəticələrinə dair hesabatına əsasən, konsorsium iştirakçıları tərəfindən BTC üzrə əməliyyat tədbirlərinə 59 milyon dollar, əsaslı məsrəflərinə isə 18 milyon dollar xərclənib.

Hesabat dövründə BTC vasitəsilə ixrac olunmuş təqribən 15 milyon ton xam neft və kondensat Ceyhan terminalında 158 tankerə yüklənərək dünya bazarlarına yola salınıb. Bütövlükdə isə, 2006-cı ilin iyun ayında istismara verilmiş 1768 kilometr uzunluğunda olan BTC boru kəməri vasitəsilə 2023-cü ilin ikinci rübünün sonunadək 546 milyon tondan çox (4,1 milyard barel) xam neft nəql edilib. Xam neft Ceyhanda 5402 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Yeri gəlmişkən, yanvar ayının 18-də BTC vasitəsilə 4 milyard barel neft ixracına nail olunması əlamətdar bir uğur kimi qeyd edilib.

Hazırda BTC əsas ixrac boru kəməri, əsasən, Azərbaycandan AÇG nefti və "Şahdəniz" yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, adıçəkilən kəmər vasitəsilə Qazaxıstan və Türkmənistana məxsus xam neft və kondensat həcmləri də nəql olunur.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Zəmilər şumlanıb dincə qoyulur

**Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata əsasən, artıq bir sıra rayonlarda təkrar əkin aparılır. Məsələn, Ağdam rayonunda yığımla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında mühüm rol oynayan təkrar əkinin tətbiqi də uğurla həyata keçirilir, yüksək məhsuldarlıq əldə etmək üçün torpağa lazımi aqrotexniki qulluq göstərilir.**



İndiyədək rayonda 3 min hektardan çox sahədə şum qaldırılaraq, 241 hektarda təkrar əkin aparılıb. Təkrar əkinlərin 100,5 hektarı silos üçün qarğıdalı, 3 hektarı kələm, 5 hektarı xiyar, 11 hektarı pomidor, 77 hektarı sorqo (süpürgə), 44,5 hektarı isə darıdır. Ağdamda payızlıq dənlilərin səpilməsi üçün hazırlıq işləri də həyata keçirilir.

Ağcabədi rayonunda taxıl biçini yekunlaşıb. Cari mövsümdə 26 min hektardan çox sahədə biçin aparılıb, 120 min tondan artıq məhsul əldə edilib. Bu, son illərdə rayon üzrə əldə edilmiş ən yüksək göstəricidir. Xatırladaq ki, Ağcabədidə hektarın orta məhsuldarlığı buğda sahələrində 47,5 sentner, arpa sahələrində isə 39,1 sentner təşkil edir. Ağcabədili fermerlər və mülkiyyətçilər bu il 26 min 664,2 hektar sahədə taxıl becəriblər, onun 19 min 514,2 hektarı buğda, 7150 hektarı arpadır.

Hazırda rayon fermerləri və torpaq mülkiyyətçiləri kənd təsərrüfatı işlərini uğurla davam etdirirlər. Təsərrüfatlarda məhsul yığımı ilə yanaşı, dən və yaşıl yem istehsalının artırılmasında mühüm rol oynayan təkrar əkinin tətbiqini də uğurla reallaşdırılır. Fermerlər artıq 13 min hektardan çox sahədə şum qaldırıb, 1737 hektarda təkrar əkin aparıblar. Təkrar əkinlərin 1082,9 hektarı qarğıdalı, 13,8 hektarı kələm, 83,5 hektarı süpürgə, 1 hektarı kartof, 168,1 hektarı günəbaxan, 386 hektarı darı, 2 hektarı lobyadır.

Beyləqanda da biçilmiş taxıl sahələrində şum qaldırılır. Yeri gəlmişkən, rayonda taxıl biçini başa çatıb. Fermerlər və torpaq mülkiyyətçiləri zəmilərdən 70 min 753 ton məhsul əldə ediblər. Onlar 15 min 843 hektar buğda sahəsindən 63 min 922 ton, 2189 hektar arpa sahəsindən 6831 ton məhsul toplayıblar. Hər hektarın məhsuldarlığı orta hesabla 39,2 sentner, o cümlədən buğda sahələrində 40,3 sentner, arpa sahələrində isə 31,2 sentner olub.

Taxıl biçini başa çatan Bərdə rayonunda 17 min 482 hektar taxıl sahəsindən 78 min 309 ton məhsul əldə edilib. Məhsulun 60 min 424 tonu buğda, 17 min 885 tonu arpadır. Hər hektarın məhsuldarlığı orta hesabla buğda sahələrində 45,8 sentner, arpa sahələrində isə 41,7 sentner olub. Hazırda biçilmiş taxıl sahələrində şum aparılır. 2023-cü ilin məhsulu üçün Bərdədə 17 min 482 hektar sahədə taxıl becərilib. Onun 13 min 193 hektarı buğda, 4289 hektarı isə arpa əkinləri olub.

Qəbələnin təsərrüfatlarında taxıl biçini kampaniyası uğurla yekunlaşıb. Rayonda 15 min 465 hektar taxıl sahəsinin məhsulunun biçilməsi artıq başa çatıb. 40 min tondan çox məhsul tədarük olunub. Hər hektardan orta məhsuldarlıq 28,8 sentner təşkil edib.

Balakən rayonunun təsərrüfatlarında isə 1806 hektar sahənin məhsulu biçilib, 60 min ton taxıl istehsal olunub. Hər hektara görə orta məhsuldarlıq 33,2 sentner təşkil edib. Əvvəlki illə müqayisədə taxıl əkilmiş sahələr 862,4 hektar, məhsul istehsalı isə 3 min tondan çox artıb.

Builki mövsümdə balakənli fermerlər 1086,7 hektar buğda sahəsindən 3361,6 ton, 719,3 hektar arpa sahəsindən isə 2644,4 ton məhsul əldə ediblər. Buğda sahələrinin hər hektarının orta məhsuldarlığı 30,9 sentnerə, arpa zəmilərinin isə 36,7 sentnerə çatıb.

Hazırda taxıl biçini yekunlaşan sahələrdə təkrar qarğıdalı əkini davam edir. İndiyədək təsərrüfatlarda 91 hektar sahədə təkrar qarğıdalı əkilib. Eyni zamanda, payızlıq dənli bitkilərin səpini üçün 105 hektarda yay şumu qaldırılıb.

Onu da qeyd edək ki, respublikada keyfiyyət göstəricilərinə uyğun yerli ərzaqlıq buğdanın bir tonunun dövlət tədarük qiyməti cari il üçün 450 manat müəyyən edilib. Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda istehsal olunmuş və Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilmiş ərzaqlıq buğdanın hər tonuna görə istehsalçılara 100 manat məhsul subsidiyası ödənilir.

***V.BAYRAMOV, "Xalq qəzeti"***

# "Ağcabədi taxıl Aqropark" ənənəvi əkinçiliyi modernləşdirir

**Son illərdə ölkəmizdə ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsi və aqrar-sənaye kompleksinin modernləşdirilməsi məqsədilə müasir aqroparkların yaradılması istiqamətində böyük uğurlara imza atılıb.**



Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq yaradılan təsərrüfatlardan biri də "Ağcabədi taxıl Aqropark"dır. 2018-ci ildən yaradılmağa başlanan bu təsərrüfat müasir əkinçilik və bağçılıq təsərrüfatıdır. Burada əsasən arpa, buğda, qarğıdalı, pambıq, günəbaxan və sair bitkilər becərilir.

Suvarma mənbəyi kimi Yuxarı Qarabağ kanalından istifadə olunur. "Ağcabədi taxıl Aqropark"da sudan səmərəli istifadə etmək üçün ABŞ-dan gətirilmiş pivot suvarma sistemləri qurulub. Əkin sahələrinin suvarılmasında ən müasir müasir metodlardan istifadə edilir. Pivot suvarma sistemləri elmi və müasir yanaşmaların tətbiqi ilə kənd təsərrüfatı məhsullarının məhsuldarlığının yüksəldilməsinə, maya dəyərinin aşağı salınmasına və eyni zamanda, ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Burada 41-i daimi olmaqla 150 iş yeri yaradılıb.

Ötən il aqroparkda buğdanın məhsuldarlığı 50 sentner, arpanın məhsuldarlığı, təqribən, 60 sentner, pambıqda isə bu göstərici 45 sentner olub. Nəzərə alaq ki, respublikada buğda üzrə orta məhsuldarlıq hektara 31,9 sentner, pambıq üzrə isə 30,92 sentner təşkil edib, o zaman aradakı fərqin kifayət qədər yüksək olduğunu görmək mümkündür.

Bu il 509 hektarda arpa, 587 hektarda buğda əkilib. 690 hektarda da pambıq səpini həyata keçirilib. Buğda biçinindən sonra ikinci məhsul üçün qarğıdalı əkini nəzərdə tutulub. 2023-cü ildə həm də 120 hektar sahədə salınmış badam bağından ilk məhsul yığılacaq.

***P. ƏFƏNDİ, "Xalq qəzeti"***

## Naxçıvan xəbərləri

# Aztəminatlı ailə ilə görüş



**Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Şərur Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şərur rayon Yuxarı Daşarx kəndində yaşayan aztəminatlı, sağlamlıq imkanları məhdud ailə ilə görüş olub.**

Həsənovlar ailəsi ilə görüş zamanı komitənin aparat rəhbəri Eltun Həziyev və rayon icra hakimiyyəti başçısının şöbə müdirinin müavini Kamal İsmayılov aztəminatlı, sağlamlıq imkanları məhdud ailələrə daim diqqət və qayğının göstərildiyini, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və müvafiq ailələrin sosial təminatlarının gücləndirilməsi istiqamətində ardıcıl olaraq tədbirlər həyata keçirildiyini qeyd ediblər.

Sonra ailənin problemləri ilə maraqlanılıb və ehtiyaclarına uyğun 17 adda 31 kiloqramlıq ərzaq məhsulu köməkliyi göstərilib. Həmçinin vətəndaşın həyətyanı sahəsinin suvarma suyu ilə təmin olunması ilə bağlı komitəyə etdiyi müraciəti də öz həllini tapıb. Sağlamlıq imkanları məhdud, I qrup gözdən əlil Məhəmməd Həsənov göstərilən dəstəyə görə dövlətimizə minnətdarlığını bildirib.

# "İşsizin dostu" layihəsi

## *70 şəxs ödənişli ictimai işlə təmin edilib*

**DOST İş Mərkəzi Naxçıvan Muxtar Respublikasında (MR) daha 70 şəxs haqqı ödənilən ictimai işlə təmin edib.**




Muxtar respublikada "İşsizin dostu" proqramı çərçivəsində son 2 ayda ödənişli ictimai işlə təmin edilən şəxslərin sayı 370-ə çatıb. Bununla bağlı DOST İş Mərkəzi ilə Culfa, Ordubad, Şərur, Şahbuz, Babək, Kəngərli rayon icra hakimiyyətləri və Naxçıvan MR-in kənd təsərrüfatı, ekologiya və təbii sərvətlər nazirlikləri, Meliorasiya və Su Təsərrüfatı ASC arasında sazişlər imzalanıb.

Sazişlər əsasında işə götürülən hər kəslə əmək müqaviləsi bağlanıb ki, bu da onların gələcək sosial təminat hüquqlarına əsas yaradır.

Proqrama cəlb olunan, ilkin peşə hazırlığı olmayan şəxslər müxtəlif fəaliyyət sahələri üzrə işlə təmin edilməklə həmin sahələrə aid ilkin peşə bacarıqları əldə etmək imkanı qazanıblar.

# Yeni tibb avadanlıqları verilib

**Naxçıvan Muxtar Respublikasında əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin artırılması istiqamətində lazımi tədbirlər görülür, eyni zamanda, tibb müəssisələrinin müasir avadanlıqlarla təchiz olunması diqqətdə saxlanılır.**



Bu işlərin davamı olaraq Naxçıvan Diaqnostika–Müalicə Mərkəzində, Əziz Əliyev adına Uşaq Xəstəxanası və Naxçıvan Muxtar Respublika Xəstəxanasında yeni tibbi avadanlıqlar istifadəyə verilib.

Yeni tibbi avadanlıqların istifadəyə verilməsi əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyətinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərəcək.

***Səbuhi HƏSƏNOV, "Xalq qəzeti"***

# Tərəvəzçilərlə toxumçuların əməkdaşlığı

**Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi–Tədqiqat İnstitutu ilə "Azərbaycan Toxumçular Assosiasiyası" İctimai Birliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.**



Nazirliyin yaydığı açıqlamaya əsasən, sənəd institutun İdarə Heyətinin sədri Elmar Allahverdiyev və Assosiasiyanın sədri Mədinə Əliyeva tərəfindən imzalanıb.

Memorandumun məqsədi istehsal olunan keyfiyyətli və məhsuldar tərəvəz toxumlarının fermerlərə çatdırılmasına dəstək verilməsi, yeni yüksək məhsuldar toxum sortlarının təşviqi və təbliğatı işlərinin birgə həyata keçirilməsi, toxumçuluq sahəsində yeni texnologiyaların tətbiqi üzrə mütəxəssislərin hazırlanmasında ixtisaslaşmış peşə sahibləri ilə birgə treninqlərin təşkil edilməsidir.

İmzalanma mərasimində institutun fəaliyyəti, aparılan elmi-tədqiqat işləri, yeni yaradılmış tərəvəz sortları, tərəvəz toxumçuluğunun inkişafı, yerli toxumlara olan tələbatın ödənilməsi barədə ətraflı məlumat verilib.

# Qarabağ və Şərqi Zəngəzurda daşınmaz əmlak güzəştləri

**Tarif (qiymət) Şurasının qərarı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında daşınmaz əmlakın qeydiyyatı, texniki inventarlaşdırılması və kadastrı xidmətlərinə yeni tariflərlə bir sıra güzəştlər edilib.**



Bu üstünlüklər çərçivəsində şəhid ailəsi üzvlərinin, hərbi əməliyyatlar nəticəsində əlil olmuş hərbi qulluqçu və mülki şəxslərin daşınmaz əmlaklarına, işğaldan azad olunan ərazilərdə yerləşən daşınmaz əmlak obyektlərinə xidmət haqqına 50 faiz güzəşt tətbiqi nəzərdə tutulub.

Bununla yanaşı, kənd təsərrüfatı, sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar üzrə, eləcə də çoxmənzilli yaşayış binalarının inventarlaşdırılması üzrə tariflər azaldılıb. Sahəsi 1000 kvadratmetrə qədər olan əmlakların tariflərində də azalmanın tətbiqi qərara alınıb. Yeni tariflərə uyğun olaraq, qeyri-yaşayış sahələri üzrə xidmətlərdə də xərclərin azaldılması nəzərdə tutulub.

***"Xalq qəzeti"***

# Məhsuldar sortlar bolluq mənbəyidir





**Aqrar Xidmətlər Agentliyi və Azərbaycan Toxumçular Assosiasiyasının birgə təşkilatçılığı ilə bölgələrdə təşkil edilən tədbirlər fermerlərin böyük razılığına səbəb olur. Qeyd edək ki, əsasən, toxumçuluq fəaliyyəti ilə məşğul olan fermerlərlə keçirilən belə görüşlər mühüm önəm daşıyır.**

Bu dəfə növbəti görüş Tovuzda olub. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzində reallaşan Tovuz, Ağstafa, Göygöl, Qazax, Şəmkir, Samux rayonlarında toxumçuluq fəaliyyəti ilə məşğul olan 30-dan çox fermer iştirak edib.

Tədbiri giriş sözü ilə Aqrar Xidmətlər Agentliyinin sədr müavini Anar Əzimov açıb. Sədr müavini qeyd edib ki, kənd təsərrüfatının strateji sahələrindən olan toxumçuluğun inkişaf etdirilməsi, məhsul istehsalçılarının sertifikatlı toxuma olan tələbatının yerli istehsal hesabına təmin olunması əsas prioritet vəzifələrdən biridir. Bol və keyfiyyətli məhsul istehsalının əsası sertifikatlı toxumdan başlanır.

A.Əzimov daha sonra deyib ki, Aqrar Xidmətlər Agentliyi tərəfindən fermerlərin sertifikatlı toxuma əlçatanlığının təmin olunması, payızlıq buğda və arpa səpininin optimal müddətdə aparılması üçün toxumların kondisiyaya çatdırılması, habelə sertifikatlı toxumdan lazımınca istifadə edilməsi üçün bütün zəruri tədbirlər həyata keçirilir.

Azərbaycan Toxumçular Assosiasiyasının sədri Mədinə Əliyeva çıxış edərək bildirib ki, rəhbərlik etdiyi qurum tərəfindən toxumçulara daim dəstək göstərilir, problemlərin aradan qaldırılması üçün məsləhət və tövsiyələr verilir.

Görüşdə toxumların vaxtında sertifikatlaşdırılmasının zəruriliyi də diqqətə çatdırılıb. Həmçinin toxum istehsalçı və istifadəçilərinin qarşılaşdıqları problemlər dinlənilib, bu sahənin inkişafı ilə bağlı qarşıda duran vəzifələr də müzakirə olunub.

Sonda toxumçularla müzakirələr aparılıb, rəy və təkliflər dinlənilib, fermerləri maraqlandıran suallar ətraflı cavablandırılıb, müvafiq məsləhət və tövsiyələr verilib.

***Hamlet QASIMOV, "Xalq qəzeti"nin bölgə müxbiri***

# Vətənə xidmətə görə xalqa minnət qoymaq olmaz

## Bu həssas, ağrılı mövzu təkcə Gəncəyə aid deyil...

**Mövzu var ki, aylarla beynində dolaşdırırsan, amma yaza bilmirsən ki, bilmirsən. Qələm əlindən sürüşüb ağappaq kağızın üstünə düşür. Yenidən əlinə almağa qorxursan, yaza bilmirsən. Elə bilirsən ki, o, bir xəncər olub şəhidin tənəli baxışları altında ürəyinin başına sancılacaq... Bir gözünü, bir ayağını düşmənlə əlbəyaxada itirən qazinin ayaq üstdə özünü güclə saxlayan qürurlu duruşuna tab gətirməyəcəksən. Balasının tabutunu başı üzərinə qaldıran ananın sərt baxışları yıxıb sürüyəcək səni. “Kişi ağlamaz” deyən atanın göz yaşlarını görməsinlər deyə üçrəngli bayrağımızı üzünə tutduğu an qəhərləndirəcək səni...Bax, beləcə günlər, aylar keçəcək, ürəyində bir qubar bağlayacaq, səni incidəcək, ta...əlini yenidən o qələmə sarı uzadanədək.**




...Hacıkənddəyəm. Gəncədəki dəhşətli isti az qala şəhərin yarısını bura axışmağa məcbur edib. Dolayı yol kənarlarındakı kafelərdə əyləşən kim, körpə quzu əti alıb kabab çəkən kim, ya süfrə salıb ətrafında bardaş qurub əyləşən kim, samovar qaynadan kim. Hansını deyəsən, ailələrin sayı – hesabı yox. Böyüklərin səsi uşaqların



səsinə, bayağı musiqi sədalarına qarışıb, ağız deyəni qulaq eşitmir. Az qala, hər obyektin qarşısında şəhid portreti var. Kabab tüstüsü bürüyüb dörd yanı, üz-gözlərini seçmək də olmur. Əlində bir neçə şiş tənginəfəs yamaca qaçan 15-16 yaşlı bir oğlan uşağını saxlayıb soruşuram: “Bu kimin şəklidir?” “Xalam oğludur, kababxana da bizimdir” – deyib yoluna davam edir. Heç 15-20 metr aralanmamış daha böyük başqa bir portretlə rastlaşıram. Yanında dayanmış orta yaşlı bir kişi diqqətlə baxdığımı görüb: “Bizim qazidir” – deyir. Sonra da əlavə edir ki, “özü də indi gələcək, aşağıdakı yer onundur, tez-tez gəlib nəzarət edir...”

Əslində Hacıkənddə gördüyüm bu üzdəniraq mənzərə də mövzunu qələmə almağıma səbəb deyildi. Peşəsinə, şəxsiyyətinə həmişə hörmətlə yanaşdığım istedadlı foto-müxbir, televiziya operatoru Rövşən Əmiraslanoğlunun sosial şəbəkədə təəssüflə paylaşdığı “Qazinin meyvə – tərəvəzi” sözləri yazılmış şəkili görəndə yazmaq qərarım qətiləşdi. Fikirləşdim ki, axı nə bizim şəhidlər, nə qazilər, nə onları böyüdüb tərbiyə edən valideynlər, cəmiyyətimiz Vətən torpağı üçün tökülən qanın əvəzini gözləməyiblər. Onların yalnız bir məqsədi olub: düşməni torpaqlarımızdan qovub çıxarmaq, 30 illik həsrətə son qoymaq, xalqı sevindirmək, ordumuzun, Prezidentimizin gücünü göstərmək! Buna da nail olublar! Özü də cəmi 44 günə!

…Gəncə qəhrəmanlıq göstərə-göstərə, şəhid verə-verə bu günlərə gəlib çıxıb. Hələ 3 min il bundan əvvəl fars işğalçılarına qarşı döyüşmüş Əfrasiyab, XI əsrdə monqollarla vuruşmuş Usta Bəndər, sonrakı dövrlərdə yadellilərlə ölüm-dirim savaşına girmiş Qızıl Arslan, Cavad xan kimi sərkərdə və dövlət xadimləri Azərbaycanın qəhrəmanlıq tarixinin bütöv bir mərhələsini yaratmışlar.

Doğrudur, Rusiya imperiyası xalqımızı hərbi xidmətdən məhrum etmiş, azərbaycanlılar orduda xidmət əvəzinə müxtəlif vergilər ödəmişlər. Lakin Gəncə şəhərinin yüksək zadəgan və ziyalı zümrəsi içərisindən ayrı-ayrı şəxslər öz övladlarını Rusiyanın ali məktəblərinə göndərə bilmiş və onlar sonradan ən yüksək sərkərdəlik nümunəsi göstərmişlər. Onlardan Əmir Kazım Qacar, Cahangir bəy Kazımbəylinin adlarını çəkmək olar. Gəncə - Qarabağ bəylərbəyliyində aparıcı mövqeyi olan Qacarlar nəslindən 7 general çıxmışdır. Azərbaycanda Milli Ordunun yaradılması haqqında ilk təklif Rusiya çarizmi dağıldıqdan sonra İsmayıl xan Ziyadxanov tərəfindən 1917-ci ilin mayında keçirilən Qafqaz müsəlmanlarının qurultayında söylənilmişdir və burada müsəlman alaylarının yaradılmasına başlamaq üçün xüsusi büronun təşkili haqqında qərar qəbul edilmişdir.

İkinci dünya müharibəsi illərində də Gəncədən gedən igid oğulların sorağı hər yerə yayılmışdı. Bu illərdə 25 min 643 gəncəli cəbhəyə yollanmışdı. Gəncəli kiçik leytenant İsrafil Məmmədovun göstərdiyi şücaət ona böyük şöhrət qazandırmış və o, azərbaycanlılar arasında ilk dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. İ.Məmmədovun ardınca daha 10 nəfər gəncəli həmin yüksək adı qazanmışdır.




Mənfur ermənilərlə döyüşlərdə Gəncədən olan oğullarımızın qəhrəmanlığı da göz önündədir və onların hər biri haqqında saatlarla danışmaq olar.

Bunları nəyə görə dönə-dönə, yenidən xatırladıram? Azərbaycanda, təbii ki, Gəncədə də şəhid, qazi adı həmişə böyük hörmətlə çəkilib və bu gün də çəkilir. İndi dövlətimiz belə imtiyazlı şəxslər üçün nələr edir, hansı qayğını göstərir, sadalamağa ehtiyac yoxdur. Sadalasaq bu fərmanların, sərəncamların, yaradılan yardım təşkilatlarının, fondların təkcə adları uzun bir siyahı olar.

Heç sadalamaq da lazım deyil. Çünki bu onların Vətən borclarının halallığıdır. Halallığı isə xalqımız heç vaxt üzə vuran deyil.

...Səhər tezdəndir. Gəncənin Şəhidlər xiyabanındayam. Dağlardan əsən xəfif meh ətrafdakı al qan rəngindəki çiçəklərin ləçəklərini tərpədir. Bir-birindən seçilməyən şəhid qəbirlərinin arası ilə astaca nəhəng abidə kompleksinin önünə gəlirəm. Son üç ildə onların sayı bir qədər də artıb. Birinin yanında ayaq saxlayıb dayanıram. Şəkil yamanca tanış gəlir. Birdən diksinən kimi oluram. Bu ki, “Qazinin meyvə tərəvəzi” sözləri yazılmış və binanın divarına vurulmuş transparantın üzərində şəkli olan Elşad Fərəcullayevin məzarıdır. Gəncədəki 17 nömrəli orta məktəbi bitirib. 8 noyabr 2020-ci ildə Xankəndi istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb və burada dəfn olunub. Ölkə Prezidentinin sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif olunub. Fikir məni götürür…Şəhid, meyvə tərəvəz, qazi… Bir-biri ilə heç bir əlaqəsi, yaxınlığı, oxşarlığı olmayan sözlər…

Nə qədər kəskin, ağrılı olsa da söyləmək məcburiyyətindəyəm. Gəncədə müqəddəs şəhid, qazi adlarından əməlli-başlı spekulyasiyaya (başqa söz tapmadım) başlanıb. Bir də baxırsan ki, şəhərin mərkəzində adamların gur gediş-gəlişi olduğu keçiddə kimsə, necə deyərlər, məskən salıb, primitiv bir bazar açıb, taxta skamyaların üzərinə nə gəldi düzüb. Soruşursan kimdir, deyirlər, “ŞƏHİD anasıdır.” Başqa yer təklif olunsa da heç hara getmir, deyir: Elə burada satmalıyam, oğul qurban vermişəm, mənə heç kim heç nə deyə



bilməz.

Əslində, düz deyir. Çünki dəfələrlə müşahidə etmişəm ki, polislər ona mane olmur, əksinə, çox nəzakətlə davranırlar. Əvəzində yolun ortasındakı “piştaxta” hər gün uzanır. Şəhidin, qazinin “meyvə-tərəvəzi”nin yanına “şmotkalar”, ayaqqabılar, suvenirlər düzülür...

Çoxdan tanıdığım ziyalılardan biri mənə açıqca söylədi ki, oğlum şəhid anasının piştaxtasının yanına ayaqqabı qoyub satır. Kim mane olmaq istəyəndə həmin ananı nişan verir və heç nə demirlər...

Şəhid və qazilərin şəkillərindən sui –istifadə etmək isə heç bir ölçüyə sığmır. Yuxarıda adını çəkdiyim Hacıkənddə, yol kənarlarında elə şəhid portretləri var ki, az qala, hər yüz metrdən biri qarşına çıxır. Bunları kim edir, nəyə görə edir, bilən yoxdur. Təbii ki, əksəriyyəti məqsədlidir.

Hər ticarət obyektinin, köşkün qarşısında, bazarda, kababxanaların yanında şəhid portretlərinin vurulması yolverilməzdir. Bunlara bir nəzarət mexanizmi işlənib hazırlanmalıdır. Razılaşın ki, şəhid təkcə bir atanın, ananın deyil, həm də Vətənin övladıdır, Vətənin şəhididir, hamımızındır! Ona görə də qayğısına dövlət qalırsa, digər vacib məqamlara da qarışa bilər, məsləhət, tövsiyə verər.

Bakı istiqamətindən Gəncəyə daxil olarkən hər kəsi şəhid portretləri qarşılayır. Ucu-bucağı görünmür. Hamısı da eyni ölçüdə, nəfis şəkildə. Gəncədən çıxarkən də hamını şəhidlər, Gəncə şəhidləri “yola salır”. Əslində, şəhərin icra strukturları bu məqamı yaxşı fikirləşiblər, münasib yer seçiblər.

Qazilərə nə qədər hörmət- izzətlə yanaşsaq da onların bəzilərinin ya özləri, ya da adlarından istifadə edən tanışları, dostları, yaxud heç tanımadıqları adamlar öz niyyətlərini həyata keçirmək üçün bir çox hallarda yazıda qeyd etdiyimiz hallara yol verirlər ki, bu da heç bir mənəvi-əxlaqi normalara sığmır.

Gəncə Şəhər İcra Hakimiyyətini, onun ayrı-ayrı strukturlarının başçılarını, hüquq-mühafizə orqanlarını, elə şəhərin rəhbəri Niyazi Bayramovun özünü bu və ya digər məsələlərin ləng həll olunmasına görə, dəxli oldu–olmadı tənqid etmək, irad bildirmək mümkündür. Amma şəhid və qazi adı olan yerdə “qayğı göstərmirlər, diqqət yetirmirlər, köməklik etmirlər” və sair bu kimi sözləri ora əlavə etmək, yanaşı çəkmək, yumşaq desəm, ən azı insafsızlıqdır. İstər Qarabağ bölgəsində həlak olan Gəncə şəhidləri, istərsə də erməni terrorçularının 2020-ci ilin oktyabr ayında şəhəri 5 dəfə raket atəşinə tutarkən həlak olanların ailələrinə diqqət, qayğı hamının gözü qabağında olub. Elə şəhid ailəsi ola bilməz ki, şəhər rəhbərləri onu bir neçə dəfə ziyarət etməsinlər. Qazilər də onlar kimi.

Bütün bunlar sevindirir. Bir daha sübut olunur ki, biz torpaqlarımız uğrunda qanını axıdanları, “İlhamla irəli!” deyib Xankəndiyə kimi gəlib çıxanları unutmuruq və heç vaxt unuda bilmərik. Sadəcə bu adları göz bəbəyimiz kimi qorumalıyıq, onların müqəddəsliyinə səcdə etməliyik. Bir də elə etməliyik ki, adlar xırdalanmasın, işbazların əlinə keçməsin. Bu işdə ictimaiyyət də fəal olmalıdır. Gəncə Dövlət Kukla Teatrının baş rejissoru Elşad Məmmədovla bu mövzuda söhbət edərkən yaxşı dedi ki, “Vətənə xidmətə görə xalqa minnət qoymaq olmaz.” Sonra da mərhum şairimiz Rübailin bu misralarını astadan söylədi:

**Çinarın hər şeydən gözləri toxdur,**
**Əkib becərənlər ondan nə dərdi.**
**Kim deyir çinarın meyvəsi yoxdu,**
**Onun meyvələri gəncəlilərdi!**

Qazi, Suqovuşanın azad olunmasında xüsusi fəallığı ilə seçilmiş və yaralanmış, sinəsini dövlət başçımızın təltif etdiyi medallar bəzəyən Elşad Məmmədov haqlı olaraq qazi və şəhidlərimizi çinara bənzətdi və onları gözütox adlandırdı...Zənnimcə, əlavə sözə ehtiyac yoxdur.

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

# Gəncə Memorial Kompleksinin layihəsi təqdim olunub

**Qırx dörd günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsinə inşa ediləcək Gəncə Memorial Kompleksinin layihəsi təqdim edilib.**



Gəncə Memorial Kompleksi Ermənistanın hərbi cinayətləri nəticəsində həyatını itirmiş Gəncə sakinlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində dövlət başçısı tərəfindən verilən tapşırıqlara əsasən, ərazidə ziyan çəkmiş binaların konservasiyası nəzərə alınmaqla layihələndirilib. Təməli 30 yanvar 2022-ci il tarixində Prezident İlham Əliyev tərəfindən qoyulan Gəncə Memorial Kompleksinin konsepsiyası Böyük Britaniyanın nüfuzlu “Chapman Taylor” şirkəti, tikinti layihəsi isə “Azərmemarlayihə” Dövlət Baş Layihə İnstitutu tərəfindən hazırlanıb.

Gəncə Memorial Kompleksi unikal memarlıq üslubunu özündə əks etdirən muzey binasından, estetik cəhətdən gözəl və funksional landşaft həllərindən ibarətdir.

Memorial abidə 12 metr dərinliyə qədər enməsi nəzərdə tutulmuş spiralvari formada, hadisənin dəhşətlərini əks etdirən bədii obrazda və minimalizm üslubunda layihələndirilib. Muzey kompleksinin spiralvari formasının müşahidəsi üçün xüsusi sahələr planlaşdırılıb. Kompleks ərazisində yerləşən muzey binası gələn qonaqların ətraflı məlumatlandırılmasına xidmət göstərəcək və törədilmiş faciənin işıqlandırılmasında xüsusi rol oynayacaq.

Raket zərbələri nəticəsində dağıdılmış yaşayış binalarının qalıqlarının və izlərinin saxlanılacağı hissə isə açıq hava altında kompleksin davamı kimi nəzərdə tutulub.

Burada şəhərin zərər dəymiş hissəsinin abadlaşdırılması və əhalinin istirahəti üçün geniş parkın yaradılması da planlaşdırılır.

Ərazidə, həmçinin 3 ədəd giriş tağları, 1 ədəd fəvvarə, mühəndis qurğuları olan 1 ədəd qazanxana, 1 ədəd transformator yarımstansiyası, 1 ədəd yeraltı nasosxana, 2 ədəd yeraltı içməli və yanğın əleyhinə su çənlərinin inşası nəzərdə tutulub.

Kompleksin ərazisində yeni layihələndirilən bina və qurğuların tikinti sahəsi 3140.2 kvadratmetr, bütün yerüstü mərtəbələrinin sahəsi 3542.2 kvadratmetr, konservasiya olunan binaların sahəsi isə 2965.9 kvadratmetr təşkil edir.

Xatırladaq ki, Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə 5 dəfə ayrı-ayrı zamanlarda, yəni 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində raket zərbələri endirilib. Onlardan ən dəhşətliləri 11 və 17 oktyabr tarixlərində baş verib. Əhalinin sıx yaşadığı ərazilərə “Toçka-U”, “Smerç”, “Skad” və digər raketlərlə gecə saatlarında hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb.

Gəncə şəhərinə atılmış raket zərbələri nəticəsində 6-sı uşaq və yeniyetmə olmaqla, ümumilikdə 26 nəfər həlak olub, 29-u uşaq olmaqla, ümumilikdə 142 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

***H.ZEYNALOĞLU,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***

Özbəkistan Mədəniyyəti Günləri

# Unudulmaz qardaşlıq görüşləri



**Bakıda keçirilən Özbəkistan Mədəniyyəti Günləri uğurla sona yetdi. Bayramın sonuncu günü Milli İncəsənət Muzeyində keçirilən mərasimdə iki ölkənin mədəniyyət nazirləri, tanınmış incəsənət xadimləri iştirak edirdilər.**

Azərbaycan mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov qonaqları salamlayaraq bildirdi ki, ölkələrimiz arasında dostluq münasibətləri, əlaqələrin möhkəmlənməsində dövlət başçıları – Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyevin müstəsna xidmətləri var. Sevindirici haldır ki, Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə qardaş ölkənin bir qrup mədəniyyət xadimi "Xalq artisti" fəxri adı və "Dostluq" ordeni ilə təltif edilib. Qardaş ölkələrimiz arasında dostluq münasibətləri bütün istiqamətlərdə olduğu kimi, mədəniyyət sahəsində də uğurla inkişaf edir.

Sonra tanınmış müğənni olan soydaşımız Nəsibə Abdullayevaya "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adının nişanı və vəsiqəsi təqdim edildi. Mükafatı mədəniyyət naziri Adil Kərimli təqdim etdi. Adil Kərimli iki xalq arasında bağların daha da yaxınlaşmasında xidmətləri olan sənət adamlarını təbrik edərək yaradıcılıq uğurları arzuladı. Nəsibə Abdullayeva Azərbaycan xalqının onu unutmadığını, sənətinə hər zaman diqqət və sevgi ilə yanaşdığını qeyd edərək yüksək dövlət təltifinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Daha sonra "Dostluq" ordeni ilə təltif edilən Haşimjon İsmayılov, Əli Nəsirli və Kamoliddin Urinbayevin mükafatları təqdim olundu. Əli Nəsirli mərasimdə iştirak edə bilmədiyi üçün mükafat nümayəndə heyətinə təqdim edildi. Təltif olunanlar Azərbaycanda fəaliyyətlərinə verilən yüksək qiymətə, göstərilən diqqət və qayğıya görə Azərbaycanın dövlət başçısına dərin minnətdarlıqlarını ifadə etdilər. Sənət adamları qardaş xalqlarımızın mədəniyyətinin inkişafına bundan sonra da öz töhfələrini verəcəklərini vurğuladılar.

Mərasimdə Özbəkistan Prezidentinin sərəncamı ilə fəxri ada layiq görülən azərbaycanlı sənət və elm adamları da iştirak edirdilər. İki ölkənin nazir və sənətçiləri birgə xatirə şəkli çəkdirdilər.

Özbəkistanlı qonaqların Milli İncəsənət Muzeyinin ekspozisiyası ilə də tanışlığı onlarda zəngin təəssürat yaratdı.

***

Mədəniyyət günləri çərçivəsində Muqimi adına Özbəkistan Dövlət Musiqili Teatrı Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində klassik "Qayınana" tamaşası ilə çıxış etdi.



Səhnə əsərinin özbək variantının rejissoru Daston Xakberdiyev, musiqi tərtibatçısı Karima Uzakova, rəssamı Cəlalədin Rahimov, dirijoru Akmal Turayevdir. Tamaşada Cənnət obrazını Özbəkistanın Əməkdar artisti Muxabbat Sotvaldiyeva, Afət və Zərifə rollarını Gülasar Raxmonova Ayazı Omon Yuldaşev oynayıblar. Sevda (Arofat Erqaşeva), İlqar (Ravşan İbraqimov), Sədaqət ( Zilola Abdullayeva) rolları da yaddaqalan oldu.

Özbək sənətçilərinin ifasında tamaşada dil fərqi elə də hiss olunmurdu. Həm pyesin güclü koloriti, həm də truppanın yaradıcı səyləri tamaşanın təbii alınmasına təsir edən amillər idi. Aktyorlar bəzi sözləri təmiz Azərbaycan dilində deyirdilər. Musiqi parçaları da orijinal variantda olduğu kimi səsləndirildiyi üçün gurultulu alqışlarla qarşılandı.

Epizodlara baxdıqca unudulmaz Xalq artistimiz Nəsibə Zeynalovanın (Cənnət rolu) sağlığında 1000 dəfədən çox oynanılmış komediyanın orijinal səhnələri, tanınmış aktyorlarımızın işıqlı obrazları göz önündə canlanırdı. Bildiyimiz kimi, "Qayınana" musiqili komediyasını bəstəkarlar Zakir Bağırov və Tofiq Quliyev aktyor Məcid Şamxalovun librettosu əsasında yazılıb. 1965-ci ildə oynanılmış ilk tamaşanın rejissoru Niyaz Şərifov, rəssamı Böyükağa Mirzəzadə idi. Səhnə əsəri dəfələrlə Orta Asiya respublikalarında, Bolqarıstanda da teatrsevərlərə təqdim edilib.

Onu da xatırladaq ki, "Qayınana" bizim Musiqili Teatrın səhnəsində özbək dilində ilk dəfə təqdim olunmurdu. Ötən il dekabrın 4-ü və 5-də rejissor, Əməkdar incəsənət xadimi Əsgər Əsgərovun quruluşunda Özbəkistanın Kattakurqan Şəhər Dram Teatrının kollektivi səhnə əsərini burada uğurla oynayıb.

Tamaşa bu dəfə də maraqlı keçdi, sürəkli alqışlarla müşayiət olundu. Müsahibələr aldıq.

***Karima Uzakova, Özbəkistanın Fəxri mədəniyyət xadimi, səhnə əsərinin musiqi tərtibatçısı:***

– Təbii ki, ilk növbədə əsərin musiqisindən danışmalıyam. Deyim ki, "Qayınana" belə böyük uğur qazanmasına görə bəstəkar Zakir Cavad oğlu Bağırovun da ruhuna borcludur. Bildiyimə görə, Zakir Bağırov Azərbaycan Dövlət Konservatoriyasında 45 il müəllim kimi fəaliyyət göstərib, operanı, klassik musiqini əla bilib. Biz onun bu operetta musiqisini sırf orijinaldakı kimi təqdim etdik. Başqa



cür ola da bilməz. Bakı teatrsevərlərinə gəlincə isə onu deyim ki, çox həssas publikadır, incəsənəti dərindən bilirlər.

***Muqimi adına Musiqili Dram və Komediya Teatrının aktyoru Ravşan İbraqimov:***

– Bakıya ilk səfərimdir. Paytaxtınızı çox bəyəndim. Qədim şəhər möhtəşəm tikililəri və parkları ilə göz oxşayır. Təəssüratım çox zəngindir. Özbəkistandan bura "Qayınana" tamaşasına görə gəlmişəm. Sizin Dövlət Akademik Musiqili Teatrınızın səhnəsində oynamaq böyük şərəfdir. Mən tamaşada İlqar obrazını canlandırdım.



Bu, peşəkarlıq baxımından şəxsən mənim üçün böyük təcrübə oldu. Düşünürəm ki, pis alınmadı. Bakıdakı həmkarlarımızla yaxından tanış olmaq fürsəti də əldə etdik. Bizim mədəniyyətimiz də bir-birinə çox yaxındır. Buna görə də təcrübə mübadilələrimiz çox faydalı olacaq...

***

Elə həmin axşam Bakının bulvar ərazisində tanınmış özbək sənətçilərinin iştirakı ilə geniş konsert proqramı təşkil olundu.

Mədəniyyət günlərinin möhtəşəm bağlanış mərasiminin keçirildiyi tədbirdə məşhur sənətçilərdən 7 ölkənin Xalq artisti olan, məşhur "Yalla" ansamblının yardıcısı Fərrux Zakirov, Özbəkistanın və Azərbaycanın Xalq artisti Nəsibə Abdullayeva, həmçinin Prezident İlham Əliyevin sərəncamı ilə "Dostluq" ordeni ilə təltif edilmiş Xalq artisti Haşimjon İsmaylov, qardaş ölkənin digər tanınmış sənətçiləri – Xalq artistləri Zulayxo Boyhonova, Gulsanam Mamazoitova, Jenisbek Piyazov, Samandar Alimov və başqaları öz zəngin repertuarları ilə sənətsevərlərin qarşısında parlaq çıxışlar etdilər. Konsert zamanı Özbəkistandan təşrif buyurmuş sənət dostlarımız repertuarlarında yer alan populyar mahnılarla bərabər, Azərbaycan musiqisindən nümunələri də böyük məharətlə ifa etdilər. "Dutorçu" qızlar ansamblının da çıxışı hər kəsi valeh etdi. Qızlar həm öz gözəllikləri, həm də şən, oynaq musiqi nömrələri ilə, sözün əsl mənasında, ürəkləri ovsunladılar.

Xatırladaq ki, avqustun 1-də, Heydər Əliyev Sarayında Özbəkistan Mədəniyyəti Günlərinin təntənəli açılış mərasimində də onlar tamaşaçı qəlblərini eyni şəkildə fəth edə bilmişdilər.

Tədbir boyunca özbək qonaqlarla səmimi söhbətlərimiz oldu. Onların ürək sözlərini təqdim edirik.

***Maftuna Torayeva, "Dutorçu" qızlar ansamblının üzvü:***

– Kollektivimizin hər bir üzvü gözəl Bakıya vuruldu. Şəhəriniz füsunkardır, insanlarınız da gözəl, mehriban və gülərüzdürlər. İlahi, azərbaycanlılar özbək musiqisini necə də ürəkdən sevirlər! Heç biz də Azərbaycan musiqisinə sevgimizlə heç də geridə qalmırıq. Yaxşı yadımdadır, 2 ay əvvəl Daşkənddə "Özbəkistanda Azərbaycan musiqisi günləri" çərçivəsində Azərbaycan və Özbəkistanın Xalq artisti Gülyanaq Məmmədova "Can Azərbaycandan can Özbəkistana sevgilərlə" adlı konsert proqramı ilə çıxış etdi və alqış sədalarından az qala divarlar lərzəyə gəldi. Həmin konsertdə Özbəkistanın Əməkdar artisti Yulduz Turdiyeva səhnəyə çıxaraq Gülyanaq xanımla birgə duet və xalq mahnılarımızı ifa etdi. Yəni eyni kökdən su içən mədəniyyətlərimiz var.

***Özbəkistan Aşpazlar Assosiasiyasının baş aşpazı Azamat Ruzbayev:***

– Azərbaycan bizə ən yaxın dost olan Türk dövlətidir. Əvvəllər də burda olmuşam. Şuşa qalasını ziyarət etmişəm. Ölkənizi çox bəyənirəm. Dəniz mənzərəsini, xüsusilə. Ölkənizin əsrarəngiz təbiəti var. İnsanlarınız çox mehriban və istiqanlıdır. Böyük anşlaqla keçən bu konsert proqramı tamaşaçılar tərəfindən böyük məmnunluq hissi və coşqu ilə qarşılandı.

Sizin mətbəxiniz özbək mətbəxinə yaxın olduğu üçün çox bəyənirəm. Yeməkləriniz arasında dolma və şah plov həqiqətən də çox dadlıdır. Özbəkistan Mədəniyyəti Günləri çərçivəsində təşkil olunan kulinariya sərgisində biz də öz məharətimizi nümayiş etdirdik, plov axşamı yaddaqalan oldu. Özbək mətbəxi təkcə məşhur plovla deyil, həm də bir çox başqa yeməklər, o cümlədən lağman, kabab, beşbarmaq, damlyama, mantı, aççik-çuçuk, çuçvara, çak-çak, sumalak, samsa, patır, halvaitar, gul - xanım və sairlə şöhrət qazanıb.

Ölkəmizə təşrif buyurmuş sənətçilər və digər qonaqlar 4 gün ərzində bənzərsiz ifaları, folklor nümunələri, dadlı mətbəx nümunələri ilə bir daha Özbəkistanın böyük tarixə, zəngin mədəniyyətə malik olan bir ölkə olduğunu göstərdilər.

***Əli NƏCƏFXANLI, Fidan SALMANOVA, Elşən AĞALAR (foto), "Xalq qəzeti"***




# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda görüş

**Azərbaycanda keçirilən Özbəkistan Mədəniyyəti Günlərində iştirak etmək üçün ölkəmizə gəlmiş qardaş ölkənin mədəniyyət naziri Ozodbek Nazarbekov Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunu ziyarət edərək təşkilatın prezidenti Günay Əfəndiyeva ilə görüşüb.**



Görüşdə fondun prezidenti Günay Əfəndiyeva Azərbaycanda Özbəkistan Mədəniyyəti Günlərinin yüksək səviyyədə keçirilməsi münasibətilə Ozodbek Nazarbekovu təbrik edib. Günay Əfəndiyeva təşkilat tərəfindən Özbəkistanın zəngin mədəni irsinin beynəlxalq səviyyədə tanıdılması yönündə həyata keçirilmiş layihə və tədbirlərdən söz açıb. O, fondun Özbəkistanla bağlı gələcək layihələrindən bəhs edərək, ölkə ilə daha aktiv qarşılıqlı fəaliyyətlərin vacibliyini diqqətə çatdırıb.

Nazir Ozodbek Nazarbekov Azərbaycanda Özbəkistan Mədəniyyəti Günlərinin keçirilməsindən məmnunluğunu ifadə edərək, tədbiri ölkələrarası dostluq münasibətlərinin möhkəmlənməsinə önəmli töhfə kimi qiymətləndirib. Nazir fond tərəfindən özbək xalqının milli-mənəvi dəyərlərinin təbliği istiqamətində aparılan işləri yüksək dəyərləndirib. O, təşkilat ilə ölkə arasında işbirliyi əlaqələrinin daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayıb. O, fondun Özbəkistanla bağlı yeni layihələrinin birgə əməkdaşlıq çərçivəsində gerçəkləşdirilməsinə dəstəyini ifadə edib.

Görüş tərəfdaşlığın gələcək perspektivlərinə dair müzakirələrlə davam edib.

Görüşün sonunda tərəflər bir-birinə xatirə hədiyyələrini təqdim ediblər. Özbəkistan Respublikasının mədəniyyət naziri Ozodbek Nazarbekov ölkənin milli geyim nümunələri və qədim musiqi alətini fondun muzeyinə bağışlayıb.

***"Xalq qəzeti"***

Yaddaşlarda yaşayanlar

# Gəlimli-gedimli Dünya!

## *Tələbə yoldaşım Əlislam Bilalın xatirəsinə*

**Ötən əsrin 70-ci illəri idi. Bakıda ilk tanış olduğum adamlardan biri də sonradan tələbə yoldaşımız olmuş kürdəmirli şair Əlislam Səmədov idi. Atası Bilal müəllim rəhmətə gedəndən sonra Əlislam Bilal təxəllüsünü götürmüşdü. İndi o özü də dünyada yoxdur.**



Bayılda – Neftçilərin İliç adına Mədəniyyət Sarayında (indi o da yoxdur) fəaliyyət göstərən ədəbi birlikdə tanış olmuşduq.

Əlislam Paris Komunnası adına gəmi təmiri zavodunda işləyirdi (indi o yoxdur), mən isə 26 Bakı Komissarı adına Neft və Qazçıxarma İdarəsində (o da yoxdur) çalışırdım.

Əlislamın Tofiq Bayramla tez-tez salaməleykümü olurdu (indi o yoxdur), mənim isə Oqtay Rza ilə, təxminən, 10 illik salam stajım var idi (indi o da yoxdur).

Əlislam məni "KASPAR"ın yataqxanasında (o da yoxdur) Tofiq Bayramla görüşə dəvət etmişdi. Məclisi rəhmətlik Allahverdi Məmmədli aparırdı – o da yoxdur.

Mən isə Əlislamı neftçilərin yataqxanasında (o, yoxdur) yazıçı Firudin Ağayevlə (o da yoxdur) keçirilən görüşə dəvət etmişdim.

Əlislam bir dəfə məni SSRİ-nin (Allaha şükür ki, o da yoxdur) 50 illiyi adına Dillər İnstitutunda (o da yoxdur) yenicə Komsomol mükafatı laueratı adı almış (o yoxdur) Cabir Novruzla (o da yoxdur) görüşə dəvət etmişdi.

Mən isə ona Bakıda keçirilən Sovet Ədəbiyyatı Günləri (o da yoxdur) çərçivəsində Rəsul Həmzətovla (o da yoxdur) keçirilən görüşə dəvətnamə almışdım.

Offf... iş uzanır. Nədən söz açsam, o yoxdur, o da yoxdur, o biri də yoxdur...

5-6 il əvvəlin söhbətidir. Bakıdakı şadlıq saraylarından birində toyda iştirak edirdik. O saray indi də var. Bizdən bir neçə masa aralıda əyləşmiş gənclərdən biri qalxaraq mənə sarı gəldi:

– İttifaq əmi salam! Sizi görməyimə nə qədər şad olduğumu deyə bilmirəm.

– Təşəkkür edirəm! Amma incimə, mən səni tanıya bilmədim.

– Əmi, mən Əlislam Bilalın oğluyam.

Qucaqlayıb bağrıma basdım.

Allaha min şükür ki, O VAR!!!

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

# Laçında yay düşərgəsi

**Bu gün Laçın sürətlə dirçəldilir və məskunlaşdırılır. 30 illik işğaldan sonra yenidən özümüzə qayıdan Laçında olmaq hər kəs üçün qürurvericidir. Artıq 180 ailənin –700 nəfər keçmiş məcburi köçkünün rayonda daimi məskunlaşması təmin edilib və köçürülmə prosesi davam etməkdədir.**



Laçında teatr və kino xadimlərinin yay düşərgəsinin təşkil olunması fərəhli hadisələrdəndir. Düşərgə "Bakı Abadlıq Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin təşəbbüsü və dəstəyi ilə Teatral Studiya tərəfindən yaradılıb. Orada Azərbaycan Dövlət Akademik Dram Teatrının bədii rəhbəri Mehriban Ələkbərzadə, Gənc Tamaşaçılar Teatrının rejissoru, Əməkdar artist Nicat Kazımov və Pantomima Teatrının quruluşçu rejissoru Ceyhun Dadaşovun layihələri reallaşdırılır.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin xüsusi seçimlərindən keçən tələbələrin də qatıldığı 20 günlük yay düşərgəsində üç tamaşa hazırlanıb və bir neçə günə nümayiş olunacaq. Rejissor Ceyhun Dadaşovun dediyinə görə, məqsəd işğaldan azad edilmiş ərazilərimizdə ilk dəfə olaraq tamaşalar hazırlamaq, milli mədəniyyətimizi burada da inkişaf etdirməkdir. "İyulun 22-dən başlayan hazırlıqlar yekunlaşmaq üzrədir. Layihə ilə bağlı tamaşalar məhz Laçın torpağında hazırlanır. Avqustun 8-də Nicat Kazımovun quruluşunda Cəfər Cabbarlının "Sevil", 9-da mənim quruluşumda Maksim Qorkinin "Danko haqqında əfsanə", 10-da isə Mehriban Ələkbərzadənin Jan-Pol Sartrın "Son xətt" tamaşalarının premyerası olacaq.

Həmçinin layihə çərçivəsində Fuad Əlişovun rejissorluğu ilə çəkilən "Lazım gəlsə" adlı filmin təqdimatı gözlənilir. Qeyd edək ki, bu, işğaldan azad olunan ərazidə çəkilmiş ilk qısametrajlı filmdir.

***"Xalq qəzeti"***

# "Taxıl sazişi"ni uzatmaq mümkün olacaqmı?

**Məlum olduğu kimi, ötən il İstanbulda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və BMT-nin Baş katibi Antonio Queterreşin təşəbbüsü ilə Ukrayna taxılının Qara dəniz üzərindən dünya bazarlarına çıxarılması ilə bağlı Rusiya, Ukrayna və Türkiyə arasında "taxıl sazişi" imzalanıb. Bu, çağdaş dünya diplomatiyasında böyük uğur sayılan bir sənəd idi.**



Ukrayna ötən bir il ərzində Qara dənizdəki limanlarından dünya bazarlarına milyon tonlarla taxıl ixrac edərək bundan xeyli vəsait əldə edib. Burada böyük humanist məqsəd də var. Sazişdə nəzərdə tutulduğu kimi, Ukrayna taxılının böyük bir qismi son illər yoxsulluqdan və ərzaq çatışmazlığından kəskin əziyyət çəkən Afrika ölkələrinə göndərilib. Nəticədə on minlərlə ailəni aclıq və xəstəliklərdən xilas etmək mümkün olub.



Dünya ümid edirdi ki, taxıl sazişi bu il də qüvvədə qalacaq. Amma belə olmadı. Belə ki, iyulun 17-də Rusiya hökuməti birtərəfli olaraq sazişdən çıxdığını bəyan etdi. Moskva bunu onunla izah etdi ki, sazişin Rusiyaya aid olan hissəsi yerinə yetirilməyib. Yəni sənəddə qeyd olunmasına baxmayaraq, Rusiya taxılının və bu ölkədə istehsal olunan mütəlif gübrələrin ixracına tədbiq edilən məhdudiyyətlər aradan qaldırılmayıb.

Qeyd edək ki, taxıl ixracı Ukraynanın əsas gəlir mənbəyidir. Ölkənin təkcə ötən il taxıl satışından qazancı 10 milyard dollar olub. Ukraynanın bu gəlirlərdən məhrum olması ölkə iqtisadiyyatına böyük zərbə ola bilər. Rusiyanın Ukrayna taxılının ixracına mane olmağa çalışması məhz bu amildən qaynaqlanır. Belə ki, Moskva öz rəqibini maliyyə cəhətdən boğmağa çalışır.

Dünyanın bir çox nüfuzlu dövlətləri və beynəlxalq qurumlar taxıl ixracının dayandırılmaması üçün Kremlə israrla müraciət etdilər. Amma Rusiya rəsmiləri yalnız yuxarıda qeyd edilən şərtlərin yerinə yetiriləcəyi təqdirdə, sazişə qayıtmağın mümkün olduğunu bəyan etdilər. Qərb dövlətləri isə Rusiyaya qarşı iqtisadi sanksiyaları ləğv etməyi ağıllarına belə gətirmirlər.

Belə bir çətin məqamda ümid yalnız qardaş Türkiyəyə və onun lideri R.T.Ərdoğana qalmışdı. Təsadüfi deyil ki, Ukraynanın xarici işlər naziri Dmitri Kuleba bu yaxınlarda bildirmişdi ki, yalnız Türkiyə Prezidenti "taxıl sazişi"nin bərpa olunmasını təmin etmək iqtidarındadır. Nazirin sözlərinə görə, R.T.Ərdoğanın Ukrayna və Rusiya prezidentləri ilə ayrı şəxsi münasibətləri var.

Görünür, cənab D.Kuleba kimə güvənmək lazım olduğunu yaxşı bilir. İndi, həqiqətən tunelin o biri tərəfində işıq görünür. Rəsmi xəbər yayıldı ki, avqustun 2-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. Çoxlarının yadına dərhal "taxıl sazişi"nin taleyi düşdü.

İki lider arasında telefon danışığı barədə rəsmi açıqlamada deyilirdi ki, prezidentlər ikitərəfli və regional məsələlər üzrə fikir mübadiləsi aparıblar. Tərəflər Putinin Türkiyəyə səfəri ilə bağlı da razılığa gəliblər.

Bununla belə səfərin vaxtı açıqlanmayıb. Türkiyə rəsmiləri bildirirlər ki, avqustun sonlarına nəzərdə tutulmuş bu səfərin detalları Ankara və Moskva arasında müzakirə olunur. Ümid edək ki, bütün məqamlar diplomatik yollarla öz həllini tapacaq. Çünki həmin görüş zamanı hazırda bütün dünyanı çox narahat edən "taxıl sazişi"nin icrasını bərpa etmək olar.

Türkiyə lideri, əlbəttə, bu çətin problemin həllinin fərqindədir. O, telefon bağlantısı zamanı bu il avqustun 2-nə keçən gecə Rusiya Silahlı Qüvvələrinin Ukraynanın Odessa və İzmayil portlarındakı taxıl qurğularına dron zərbələri endirməsindən narahat olduğunu dilə gətirib və Rusiya Prezidenti Vladimir Putini onsuz da gərgin olan vəziyyəti eskalasiya edən hərəkətlərdən çəkinməyə çağırıb.

R.T.Ərdoğan bildirib ki, ötən il "taxıl sazişi"nin icra olunması nəticəsində buğda məhsullarının qiymətləri orta hesabla 23 faiz aşağı düşmüşdü, son iki həftədə isə 15 faiz yüksəlib. Bəllidir ki, dünyanın çox yerində, eləcə də Türkiyə və Rusiyada inflyasiyanın sürətini son vaxtlar heç cür "cilovlamaq" olmur.

Yeri gəlmişkən, Türkiyə Prezident Administrasiyasının yaydığı məlumatda deyilir ki, Prezident Ərdoğan Rusiya-Ukrayna müharibəsi əsnasında gərginliyi eskalasiya edəcək addımlardan çəkinməyin zəruriliyini bildirib və "sülh körpüsü" adlandırdığı Qara dəniz təşəbbüsünə qayıdışın əhəmiyyətini vurğulayıb.

Kremlin sözçüsü Dmitri Peskov isə avqustun 2-də deyib ki, Moskva onun narahatlıqlarının təmin ediləcəyi təqdirdə "taxıl razılaşması"na dərhal qayıtmağa hazırdır. Mətləbdən uzaqlaşmadan bildirək ki, D.Peskov türk dilini əla bilir və bu dildə mükəmməl danışır.

Türkiyə mətbuatı qeyd edir ki, Ankara ilə Moskva arasında enerji sahəsində əməkdaşlığa dair saziş imzalana bilər. Bir çox analitiklərin fikrincə, Rusiya Prezidenti Vladimir Putinin Türkiyəyə səfəri çərçivəsində belə bir müqavilənin imzalanması mümkündür. Türkiyə regionda qaz "hab"ına (qovşaq) çevrilir və Rusiya bunda maraqlıdır.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

**Nigerdə hakimiyyəti ələ keçirən hərbiçilər Fransa ilə hərbi razılaşmaları pisləyib. Nigerin Fransa, eləcə də ABŞ, Nigeriya və Toqondakı səfirlərinin səlahiyyətlərindən məhrum edildiyini bildirib.**

# Niger Fransa ilə hərbi müqaviləni ləğv edib

## RFI və "France 24" proqramlarının yayımı da dayandırılıb

Hadisələrin bu fonunda Nigerin hərbi yolla devrilən Prezidenti Məhəmməd Bazum ABŞ və beynəlxalq ictimaiyyətdən kömək istəyib. O, ünvanladığı müraciətində girovda olduğunu və köməyə ehtiyacının yarandığını söyləyib. "Vaşinqton Post" qəzetində dərc olunan məqalədə M. Bazum ABŞ və beynəlxalq ictimaiyyəti Nigerin konstitusiyasının bərpasına yardım etməyə çağırıb. Demokratik yolla ölkə rəhbəri seçildiyini deyən



M.Bazum xatırladıb ki, bu, Mərkəzi və Qərbi Afrikada son 3 ildə 7-ci hakimiyyət çevrilişidir. O, hərbi çevrilişin reallaşacağı təqdirdə bunun Niger, region və bütün dünya üçün dağıdıcı nəticəsi olacağını bildirib. Devrilmiş prezident hakimiyyətə qarşı bir qrup hərbçinin çevrilişinin heç bir əsasının olmadığını vurğulayıb.

Məhəmməd Bazumun sözlərinə görə, bütün mərkəzi Sahel regionu "Vaqner" qrupu vasitəsilə Rusiyanın təsiri altına düşə bilər. Bu isə Qərbin maraqlarına ziddir. Əgər Niger Rusiyanın orbitinə düşərsə, o zaman dünyada atom enerjisi sahəsində Moskvadan asılılıq artacaq. Bundan əlavə, Qazaxıstan və Özbəkistan dünyanın əsas uran istehsalçıları sırasındadır. Onların payına dünyanın hasil olunan ehtiyatlarının təxminən yarısı düşür. Bu rəqəmə Rusiya və Nigeri də əlavə etsək, o zaman bu dörd ölkədə hasil olunan uranın payı 60 faizə qədər artacaq. Qərb isə istənilən halda buna imkan verməyəcək.

M.Bazum hazırda paytaxt Niameydəki Prezident sarayındadır.

Nigerdə baş tutan hərbi çevrilişdə isə ən çox zərər çəkən ölkə Fransadır. Artıq hərbi rejim Fransa ilə hərbi müqaviləni ləğv edib. Həmin müqaviləyə əsasən, Fransa hərbçiləri terrorçu qruplara qarşı mübarizədə Niger hakimiyyətinə yardım edirdi. Bundan başqa, bu ölkədə "France 24" telekanalı və RFI radiostansiyasının yayımı da dayandırılıb. Bu barədə RFI radiosu məlumat yayıb. Sözügedən KİV bu məsələdə son çevrilişdə iştirak edənləri günahlandırıb. Məlumatda deyilir. "Nigerdəki çevrilişdən bir həftə sonra, yerdəki bir neçə mənbənin məlumatına görə, ölkədə RFI və "France 24" proqramlarının yayımı kəsilib".

Nigerdən gələn başqa bir məlumat isə Məhəmməd Bazum hakimiyyətdən kənarlaşdırıldıqdan sonra ölkə ərazisində tətbiq edilən komendant saatının ləğvidir.

Xatırladaq ki, iyulun 26-da Nigerdə hərbçilər qiyam qaldıraraq Prezident Məhəmməd Bazumu vəzifədən kənarlaşdırıb. Hərbi çevrilişin rəhbəri general Abdurahman Çiani özünü Nigerin yeni lideri elan edərək bütün idarəçilik səlahiyyətlərini əlinə alıb.

ABŞ, Fransa, Aİ, Afrika İttifaqı, ECOWAS hərbi çevrilişi pisləsə də, Mali və Burkina Faso hərbçiləri dəstəkləyir. Bu iki ölkə Nigerə istənilən xarici hərbi müdaxilənin onlara qarşı müharibə kimi qəbul olunacağı barədə xəbərdarlıq edib.

***P. ƏFƏNDİ, "Xalq qəzeti"***

İdman

# Dünya kuboku: Bakıda qələbə ümidləri

## 3-cü mərhələdə 6 şahmatçımız mübarizə aparacaq




**Bakıda dünyanın ən güclü şahmatçılarının iştirakı ilə keçirilən dünya kuboku yarışı maraqlı, eyni zamanda gərgin mübarizə şəraitində davam edir. Azərbaycan intellektual sahibləri də medala əsas iddiaçılar kimi turnirdə inamla yarışırlar. Yarışa rekord sayda - Azərbaycanın 18 təmsilçisi qatılıb. Dünya kubokları tarixində heç bir ölkə bu qədər iştirakçı ilə təmsil olunmayıb. Turnirdə artıq ikinci mərhələyə yekun vurulub.**

Turnirdə favoritlər – keçmiş dünya çempionu, norveçli Maqnus Karlsen, azərbaycanlı qrossmeyster Teymur Rəcəbov, FİDE-nin bayrağı altında çıxış edən Yan Nepomnyaşi, polşalı Yan Kşiştov Duda və amerikalı Fabiano Karuana 3-cü mərhələyə vəsiqə qazansalar da, ABŞ şahmatçıları Hikaru Nakamura və Uesli So kimi bəzi top oyunçular dünən təşkil edilən tay-brekdə mübarizə aparmalı olublar.

İkinci mərhələdə ən böyük sürprizlərdən biri super qrossmeyster Şəhriyar Məmmədyarovun sinqapurlu Tin Jinqaoya uduzaraq növbəti mərhələyə adlaya bilməməsi olub. Eyni aqibəti 2021-ci il dünya çempionatının qalibi Nodirbek Abdusattorov da yaşayıb. Reytinqcə aşağı səviyyəli türkiyəli Vahap Sanala məğlub olan Abdusattorov yarışdan kənarda qalıb.

Turnirdə digər maraqlı məqamlar da olub. Dünyanın ən yüksək reytinqli oyunçusu Maqnus Karlsenin üstün olmasına baxmayaraq, gürcüstanlı Levan Pantsulayın da şansları var idi. Lakin onun gərgin məqamda həlledici səhvə yol verməsindən Maqnus yararlana bildi.

Qadınların yarışında da bir çox sürpriz nəticələr qeydə alınıb. 2021-ci il dünya çempionatının qalibi, İsveçrəni təmsil edən Aleksandra Kostenyukun aşağı reytinqli çinli Yan Tianqiyə (250 xal fərq) uduzması heç-heçə ilə nəticələnib və onlar tay-brekdə mübarizə aparmalı olublar. Qadınlar arasında dünya çempionu, çinli Ju Venjun da aşağı reytinqli (200 xal fərq) slovakiyalı rəqibi Eva Repkovla bacarmadığı üçün matçın taleyini tay brekdə həll etməli olublar.

Azərbaycan şahmatçılarına gəldikdə, II mərhələnin cavab görüşlərində Teymur Rəcəbovla yanaşı, qadın təmsilçimiz Ülviyyə Fətəliyeva da 3-cü mərhələyə vəsiqə qazanıb. 2019-cu ildə dünya kubokunun qalibi olan T.Rəcəbov macar Viktor Erdoşla cavab oyununda qələbə qazanıb. Rəcəbov 2 görüşün nəticəsinə əsasən, 1,5-0,5 hesablı qələbə qazanıb. Ülviyyə Fətəliyeva isə Polşa təmsilçisi Monika Soçkonu 1,5-0,5 hesabla məğlub edib.

Komandamızın digər üzvləri Vüqar Əsədli Yan Nepomnyaşi, Misrəddin İskəndərov hindistanlı Domaradju Qukeş, Aydın Süleymanlı iranlı Parham Maqsudlu, Vasif Durarbəyli isə Jül Mussara (Fransa) uduzduqları üçün növbəti mərhələyə keçə bilməyiblər.

Qadınların yarışında isə Günay Məmmədzadə, Gövhər Beydullayeva və Gülnar Məmmədova 1\32 finalda mübarizəni dayandırıblar.

Qeyd edək ki, Azərbaycan şahmatçılarından Nicat Abasov, Eltac Səfərli, Rauf Məmmədov, Qədir Hüseynov və Abdulla Qədimbəyli hər iki görüşdə rəqibləri ilə heç-heçə oynadıqlarından həlledici mərhələ sayılan tay-brekdə mübarizə aparıblar.

Şahmatçılarımız Nicat Abasov, Rauf Məmmədov, Abdulla Qədimbəyli, Qədir Hüseynov tay-brekdən qalib ayrılıblar.

Bu gün şahmatçılar 3-cü mərhələdə mübarizəni davam etdirəcəklər. Bakıda gərgin rəqabət şəraitində keçən yarışda hər bir şahmatçı qələbə ümidi ilə mübarizə aparır. Paytaxt Bakıda mötəbər turnirdə ən güclülərin müəyyənləşdirilməsi üçün hər bir şərait yaradılıb. Azərbaycan Şahmat Federasiyasının 1-ci vitse-prezidenti Faiq Həsənov "Xalq qəzeti"nə müsahibəsində indiyədək ölkəmizdə şahmat üzrə ən nüfuzlu yarışların yüksək səviyyədə keçirildiyini bildirib və qeyd edib ki, budəfəki dünya kuboku yarışında da şahmatçıların öz potensiallarından maksimum istifadə



etmələri üçün geniş imkanlar yaradılıb: "FİDE ölkəmizə böyük etimad göstərib. Dünya kuboku yarışı 2015-ci ildə Azərbaycanda keçirilmişdi. Yubiley - 10-cu dünya kuboku yarışının da Bakıda təşkili Azərbaycana olan etimadın göstəricisdir".

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev ili" elan edildiyini diqqətə çatdıran Faiq Həsənov qeyd etdi ki, bu il ölkəmizdə bütün sahələr üzrə çox mühüm beynəlxalq tədbirlər keçirilir. Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi uzun illər ərzində idmanın, o cümlədən şahmatın inkişafına daim böyük qayğı göstərib. Ulu öndərin təşəbbüsü ilə respublikamızın şəhər və rayonlarında çoxsaylı uşaq-gənclər şahmat məktəbləri istifadəyə verilib. Ölkəmizdə güclü şahmat məktəbi yaradılıb və bu proses indi də davam edir. Şahmatın inkişafına Azərbaycan Prezidenti İlham Əliyev də daim diqqət və qayğı göstərir. Bütün bunlar şahmatçılarımızın yeni qələbələr qazanmalarına əsas yaradır.

Federasiya rəsmisi şahmatçılarımızın çıxışına da münasibət bildirdi: "Dünya kubokunda gözlənilməz nəticə Tin Jinqao (Sinqapur) - Şəhriyar Məmmədyarov partiyasında qeydə alındı. Əlbəttə, Şəhriyar potensialına görə qalib gəlməli idi. Amma bu, idmandır. Oyunda qələbə də, məğlubiyyət də olur. Ümumilikdə, şahmatçılarımız yaxşı çıxış edirlər. Ümid edirəm ki, azarkeşlər, idman həvəskarları Bakıda ədalətli mübarizə, maraqlı və həm də gərgin rəqabət şəraitində keçən dünya kuboku yarışından zövq alacaqlar".

**Leyla QURBANOVA,**
**"Xalq qəzeti"**

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 164 (30280) 5 avqust 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Paralimpiya Oyunlarına daha bir lisenziya




***Azərbaycan paraüzgüçüsü Vəli İsrafilov İngiltərənin Mançester şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanıb.***

Paralimpiya çempionu 100 metr brass növündə 1:07.08 saniyə nəticə göstərməklə qalib adına layiq görülüb. Bununla o, "Paris-2024" XVII Yay Paralimpiya Oyunlarına lisenziya qazanıb.

Bundan əvvəl 3 qat paralimpiya çempionu Raman Salei 1 gümüş, 2 bürünc medal qazanıb.

## "Neftçi"stadionu "Arena" oldu



***"Neftçi"nin ev oyunlarını keçirdiyi stadion bundan sonra "Neftçi Arena" adlandırılacaq.***

Bu barədə klubun prezidenti Fərrux Mahmudov sosial şəbəkə hesabında paylaşım edib. O qeyd edib ki, azarkeşlərin istəyi nəzərə alınaraq "Neftçi" – "Beşiktaş" oyunu doğma stadionda təşkil ediləcək. Bu gündən etibarən arenanın adı nə "Bakcell Arena" nə də "8-ci km" adlanacaq. Stadionun adı "Neftçi Arena" oldu.

Xatırladaq ki, stadion daha əvvəl "8-ci km" və "Bakcell Arena" adlanırdı.

## Ən dəyərli futbol klublarımız



***2023-2024-cü illər mövsümünün startı ərəfəsində Azərbaycan Premyer Liqasının klublarının dəyərləri açıqlanıb.***

"Transfermarkt"a görə "Neftçi" futbolçularının ümumi transfer qiymətinə əsasən birinci pillədədir. "Ağ-qaralar"ın hazırkı dəyəri 14,8 milyon avrodur. 12,9 milyon avroluq dəyəri olan "Qarabağ" ikinci yeri tutur. Üçüncü pillədə isə 11 milyon 230 min avro dəyəri olan "Sabah" qərarlaşıb.

## "Tofiq Bəhramov mükafatı" təqdim olunub

***AFFA-nın inzibati binasında Azərbaycan Premyer Liqasının 2022/2023-cü illər mövsümündə fərqlənən referi və referi köməkçisinə "Tofiq Bəhramov mükafatı" təqdim olunub.***



Tədbirdə AFFA-nın baş katibi Sərxan Hacıyev və Hakimlər Komitəsinin sədri Barış Şimşek iştirak edib. Yazılı səsvermə nəticəsində "Tofiq Bəhramov mükafatı"na referi İnqilab Məmmədov və referi köməkçisi Zeynal Zeynalov layiq görülüb.

Mükafatın əsasnaməsinə uyğun olaraq səsvermədə Peşəkar Futbol Liqasının prezidenti, Premyer Liqa klublarının baş məşqçiləri və kapitanları, Hakimlər Komitəsinin üzvləri və sədri və Futbol Hakimləri Birliyinin sədri iştirak edib.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***

Texnologiya yenilikləri

## "Google"un yeni axtarış funksiyaları




***"Google" istifadəçilərin axtarış nəticələrini yaxşılaşdırmaq məqsədi ilə süni intellektlə təchiz edilmiş 3 yeni funksiyasını elan edib. Şirkətin internet saytında dərc edilən bloq yazısında elan edilən yeni funksiyalar "Search Generative Experience" (resurslara keçid sistemi) (SGE) əsasında hazırlanıb.***

Belə ki, axtarış edilən zaman SGE həmin mövzular haqqında qısa xülasələr yaradacaq. Məsələn, "ən kiçik yırtıcı quş" axtarışı zamanı saytların keçidlərindən əvvəl quş növünün təsviri ilk sırada olacaq. Digər tərəfdən, "Google" axtarışlara qısa videolar əlavə edəcəyini bildirib. Həmçinin, süni intellekt sistemindəki təkmilləşdirmələr sayəsində artıq xülasələr yaratmaq üçün vaxt iki dəfə azalıb və cavablar daha sürətli verilir.

Qeyd edək ki, istifadəçilər bu funksiyaların məlumat tapmağı asanlaşdırdığını təsdiq ediblər.

***Aytən NƏCƏFOVA, "Xalq qəzeti"***

## FTB-nin haker xəbərdarlığı

***ABŞ-ın daxili kəşfiyyat və təhlükəsizlik idarəsi FTB, süni intellektin hakerlərin işlərini asanlaşdırdığını bildirib. Xəbərdarlıq edib ki, onlar "ChatGPT" kimi məhsuldar süni intellekt vasitələrindən istifadə edərək tez bir zamanda zərərli kod yaradırlar və bundan kiber cinayətlərdə istifadə edirlər.***




FTB nümayəndəsi izah edib ki, bu vasitələr pis niyyətli insanlara hər cür qeyri-qanuni fəaliyyət üçün təkan verir. Məsələn, insanları aldatmaq üçün süni zəkanın səs proqramlarından istifadə edərək onların ən yaxınlarının səsini təqlid edirlər. "GPT-4" kimi multimodellərin istifadəyə buraxılması ilə hakerlər həssas məlumatları, ödəniş kartlarını və s. əldə etmək üçün inandırıcı saxtakarlıqlar yarada bilirlər.

Səlahiyyətli nümayəndələr qeyd edib ki, süni intellekt modelləri inkişaf etdikcə tendensiyalar artacaq. Bunun üçün həmin proqramlar lazımi tədbirlər görülmədən istifadəyə verilməməlidir.

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

Maraq dünyamız

## Maddənin yeni halları



***Faktlar maddənin 3-dən çox halının olduğunu təsdiqləyir. Biz fizika fənni üzrə məktəb proqramından maddənin 3 vəziyyəti haqqında bilirik: bərk, maye və qaz.***

Fizikada dördüncü hal – plazma da məlumdur. Amma maddənin bu ümumi hallarına əlavə olaraq, alimlər maddənin xüsusi şəraitdə baş verən digər maraqlı hallarını da kəşf ediblər. Məsələn, atomların mütləq sıfırdan (mütləq sıfıra Selsi şkalası ilə −273,15 °C və ya Farenheyt şkalası ilə −459,67 °F və ya 0 Kelvin uyğundur) yalnız 0,000001 dərəcəyə qədər soyuduğu Bose-Einstein kondensatı hissəciklər deyil, dalğalar kimi davranmağa başlayır. Zaman kristalları adlanan başqa bir maraqlı vəziyyət potensial olaraq fizika qanunlarına ziddir.

## Cazibə qüvvəsinin əksinə...



***Hamımız bilirik ki, helium şarları şişirtmək və ya şardan nəfəs aldıqda insanlara gülməli səs çıxarmaq üçün istifadə olunan qazdır.***

İnsanların çoxu bilmir ki, helium -273°C qədər soyuduqda heyrətamiz xüsusiyyətlərə malik mayeyə çevrilir. O, aşağıya doğru deyil, cazibə qüvvəsinə qarşı yuxarıya doğru axmağa başlayır və onunla birlikdə konteyner fırlananda hərəkətsiz qalır.

## Qırıq yumurta dənizdə dağılmır...



***Su altında qırılan yumurta isə meduzaya bənzəyir. Yerin səthində qırıq yumurta yayılır, lakin okeanın 18 metr dərinliyində yumurta üzərində təzyiq atmosfer təzyiqindən 2,8 dəfə yüksəkdir.***

Bu, yumurta sarısı və ağını yumurta qabığı kimi bir yerdə saxlayır.

***P. ƏFƏNDİ, "Xalq qəzeti"***

## Startapçılar üçün yeni layihə

**ABB İnnovasiya Mərkəzi 4-cü İnkubasiya proqramına start verib.**




İnnovativ, qlobal hədəfi, ideyası və onu həyata keçirmək üçün güclü komandası olanlar, proqrama müraciət edə bilərlər.

12 həftəlik inkubasiya proqramı müddətində seçilmiş startaplar beynəlxalq təcrübəli mentor dəstəyi, sahə ekspertləri ilə əməkdaşlıq, investorlara çıxış imkanı və ödənişsiz ofis dəstəyi əldə edəcəklər.

Bununla yanaşı, həmin startaplar ABB İnnovasiya Mərkəzinin təqdim etdiyi digər imkanlardan yararlanmaq fürsəti qazanacaqlar.

***F. HÜQUQQIZI, "Xalq qəzeti"***

## Çoxfunksiyalı və etibarlı qoruma

**Beynəlxalq tədqiqat qrupu internet sistemində kənar kanalların hücumunu dəf edən şifrə yaradıb. "ScitechDaily" saytı xəbər verir ki, Tohoku Universitetinin IT mütəxəssisləri dünyanın bir çox yerindən kibermühəndislərlə birlikdə təhlükəsiz internetə çıxış üzərində çalışıblar. Nəticədə, SCARF adlanan çoxfunksiyalı qoruma təminatı kodu yaradılıb.**



Tohoku Universitetinin Elektrik Rabitəsi Tədqiqat İnstitutunun professoru Rei Ueno tərəfindən hazırlanmış innovativ şifrə inkişaf etmiş sistemlərdə də tam qorumanı təmin edəcək şəkildə yaradılıb. Şifrənin təqdim etdiyi ən böyük yenilik təkcə gündəlik istifadə deyil, həmçinin superkompüterlərin qorunmasını təmin edə bilməsidir.

Müasir kompüter sistemləri xəbərsiz hədəflərdən gizli açarlar vasitəsilə də qoruna bilmirdi. Bunun başlıca səbəbi casusların virus sistemini kompüterin cari iş mexanizmindəki çatışmazlıqdan istifadə edərək tətbiq etməsi idi. SCARF-ın üstünlüyü isə sistem çatışmazlıqlarını tam ödəyə bilməsidir.

***"Xalq qəzeti"***

## Maltada itlər teatrı



***Maltada itlər üçün teatr yaradılıb. Burada heyvanlar üçün xüsusi tamaşalar göstərilir.***

Rejissorlar və aktyorlar itlərin sahibləri və digər ev heyvanları haqqında tamaşa hazırlayırlar. Qeyd edək ki, tamaşaya gələrkən it sahiblərindən özləri ilə yemək, su və təmizlik çantası gətirmələri tələb edilir. Tamaşa zamanı teatrda təlimçilər və həkimlər növbətçilik edirlər.

***F. SALMANOVA, "Xalq qəzeti"***

Sağlamlıq

## Xolesterini təmizləyən daha bir içki

***Rusiyalı həkim Morozovun sözlərinə görə, sitrus meyvələri və onların müalicəvi xüsusiyyətləri ilə hamımız tanışıq. Çoxumuz çayımıza limon əlavə etməyi sevirik. Ancaq limonu bizə daha da faydalı edən başqa üsul var.***



Limon və şam ağacı iynələrinin qarışığı ilə xolesterindən daha tez xilas olmaq mümkündür. Çoxumuz bilmirik ki, şam ağacı iynələri C vitamini və karotinlə zəngin olan efir yağlarının anbarıdır. Bundan əlavə, o, immunitet sistemini gücləndirən üstün bakterisid xüsusiyyətlərə malikdir. Hətta, limonla qarışımı damarları xolesterindən təmizlədiyi üçün insanı aterosklerozun ilk mərhələsindən xilas edə bilər.

**Məlhəmin hazırlanması qaydası belədir:**

2 dolu stəkan doğranmış şam iynələrinə bir neçə ovuc yabanı çiçək əlavə edilir. Qarışığa 2–3 stəkan su tökülür və bir saat yarım dəmlənir. Sonra ocağa qoyulur və qaynayana yaxın dərhal götürülür. Soyuduqdan sonra bir ədəd limonun suyu əlavə edilir. Qarışıq qaranlıq yerdə 20–24 saat saxlanır, sonra təmizdən süzülür.

Yeməkdən 30 dəqiqə əvvəl gündə iki dəfə yarım stəkan içmək məsləhət görülür.

***Z.HÜSEYNLİ, "Xalq qəzeti"***

Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən **avqustun 5-də Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 20-25°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 759 mm civə sütununa yüksələcək, nisbi rütubət 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında dolu düşəcəyi ehtimalı var. Səhər tədricən kəsiləcək. Gündüz əksər rayonlarda əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 31-36°, dağlarda gecə 12-17°, gündüz 18-23° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Emin Əfəndiyev və aparat işçiləri Yasamal Rayon Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Şurasının sədri Məhərrəm Məmmədova bacısı

DİLŞAD ƏHMƏDOVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4892
SİFARİŞ 1942
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00